

1918
2018

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 12 dekabr 2018



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**



REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....4
Dünya azərbaycanlılarına ....6
Prezident İlham Əliyev Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib ....8
Prezident İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib ....12
Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib ....13




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər ....15
Ölkəmiz beynəlxalq antikorrupsiya hərəkatının fəal üzvüdür ....17
Ədliyyə Nazirliyinin Kollegiya iclaslarında ....19
Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür ....22
Azərbaycan nümayəndəsi CEPEJ-in prezidenti seçilib ..25
Ədliyyə naziri Balakən və Kürdəmirdə vətəndaşları qəbul edib ....26
Məhkəmə-Hüquq Şurasının iclası ....27
“Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans ....28
Avropa Şurası ilə səmərəli əməkdaşlıq davam edir ....29
İkinci Avrasiya Hüquq Qurultayı ....30
Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyasında ....32
Notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı və müsahibə keçirilib ....33

Ədliyyə Akademiyasının beynəlxalq əlaqələri genişlənir ....34
Ədliyyə Nazirliyinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib ....35
Ədliyyə Akademiyasının məlumatları ....36
Strateji Yol Xəritəsinin icrası üzrə tədbirlər davam etdirilir ....39

## MƏQALƏ

Kamil Mustafayev. İctimai sanksiyaların və tədbirlərin həyata keçirilməsi: müsbət təcrübələr və yeni yanaşmalar ....40

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı....43
Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı ....43
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1300-VQD nömrəli Qanunu ....55
"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanunu ....56
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1306-VQD nömrəli Qanunu ....56
"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1381-VQD nömrəli Qanunu....57
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1436-VQD nömrəli Qanunu ....58
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1437-VQD nömrəli Qanunu ....63
"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanunu ....64
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1450-VQD nömrəli Qanunu ....67

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1824 Tiraj: 1200 ədəd



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

**Əziz həmvətənlər.**

2018-ci il sona yaxınlaşır. Tam əminliklə demək olar ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkəmiz bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmişdir. Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mən bu il 16 xarici səfər etmişəm. Ölkəmizə 16 dövlət və hökumət başçısı səfər etmişdir və bu, ikitərəfli əlaqələrimizin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik.

Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək səviyyəyə qalxıb. Bu, hər bir ölkə üçün çox önəmlidir, o cümlədən Azərbaycan üçün. Qonşu dövlətlərlə həm siyasi, həm iqtisadi və digər sahələrdə birgə apardığımız işlər bölgədə sabitliyi daha da möhkəmləndirir. Sabitliyə gəldikdə, deyə bilərəm ki, dünyada gərginlik, risklər, təhdidlər artır, Azərbaycan isə sabitlik məkanıdır. 2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq-iqtidar birliyidir.

Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir.

İslam həmrəyliyi məsələlərində bizim rolumuz artır. İslam Əməkdaşlıq Təşkilatı bu sahədə apardığımız siyasətə çox yüksək qiymət verir və tam əminliklə demək olar ki,

Azərbaycan müsəlman aləmində öz güclü rolunu daha da gücləndirə bilib. Müsəlman ölkələri tərəfindən bizə göstərilən diqqət, hörmət və rəğbət göstərir ki, Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur.

Bu il Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi öz həllini tapdı. Bu, hesab edirəm ki, tarixi nailiyyətdir. Çünki bildiyiniz kimi, uzun illər ərzində bu məsələ həll olunmamış qalmışdı. Ancaq bu, hazırda öz həllini tapıb və Azərbaycan bu məsələnin həllində öz dəyərli töhfəsini vermişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq. Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

Deyə bilərəm ki, münaqişənin həlli işində Azərbaycan 2018-ci ildə çox ciddi mövqelərə malik oldu. Bildiyiniz kimi, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejimi çökdü və bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər.

Bununla yanaşı, əlbəttə, hesab edirəm ki, bizim güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir. Biz son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Bu il məcburi köçkünlər üçün çox böyük işlər görülüb. 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər tikilib və onlara təqdim edilib. Bu, son illərdə rekord göstəricidir. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir və biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Əlbəttə ki, bütün bu işləri görmək üçün güclü iqtisadiyyat olmalıdır və bu iqtisadiyyat var. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Bu il ümumi daxili məhsul artır, qeyri-neft sektoru artır, sənaye istehsalı artır, qeyri-neft sənaye sektorunda isə artım 9 faizdən çoxdur. İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur. Dünya Bankının "Doing Business" proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni, bu, onu göstərir ki, apardığımız islahatlar, şəffaflıq, ciddi iqtisadi islahatlar öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir.

Biz müasir texnologiyalara böyük əhəmiyyət veririk. Bu il bizim üçüncü peykimiz orbitə buraxılmışdır. Bu, böyük hadisədir. Azərbaycan dünyanın

məhdud sayda olan kosmik klubunun üzvüdür və bu sahədə öz mövqelərimizi möhkəmləndiririk.

Bu il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. May ayında biz bu möhtəşəm tədbiri qeyd etmişdik. Bu, böyük tarixi nailiyyətdir. Eyni zamanda, bu ilin iyun ayında TANAP layihəsi də rəsmi olaraq açıldı və beləliklə, Cənub Qaz Dəhlizinin tam başa çatması üçün çox gözəl imkanlar yarandı. Bu, bizim tarixi nailiyyətimizdir və Azərbaycan xalqı bundan sonra onilliklər ərzində bu layihələrin faydasını görəcək.

Bu il Ələt Ticarət Limanının açılışını qeyd etdik. Bu da tarixi layihədir. Azərbaycan nəinki regionun, Avrasiyanın çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri bizim ərazimizdən keçir. Çox güclü nəqliyyat infrastrukturu bizə imkan verəcək ki, tranzit imkanlarımızdan çox böyük səmərə ilə istifadə edə bilək.

Bildiyiniz kimi, ilin əvvəlində mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə böyük təntənə ilə qeyd etmişik. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu il ölkəmizdə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərmişdir, mənim fəaliyyətimə yüksək qiymət vermişdir. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara, soydaşlarımıza öz salamlarımı çatdırıram, onlara uğurlar arzulayıram.

**Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.**

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm.

*Bayramınız mübarək olsun!*

# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi

çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın




hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

# Prezident İlham Əliyev Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib









**Dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində istifadəyə verilən və tikintisi aparılan müasir məhkəmə bina və kompleksləri barədə məlumat verib.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsib.

Son illərdə ölkəmizdə 16 yeni müasir məhkəmə binası tikilib, beşinin inşası isə davam etdirilir. İndiyədək Prezident İlham Əliyev paytaxtın Sabunçu, Yasamal, Nərimanov, habelə Şəki, Oğuz rayon məhkəmələri binalarının açılışında iştirak edib, İmişli rayon məhkəməsində yaradılan şəraitlə tanış olub.

Dövlət büdcəsinin vəsaiti hesabına tikilən Binəqədi Rayon Məhkəməsinin yeni binasının inşası da müasir



standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait var. Binəqədi Rayon Məhkəməsi təxminən 265 minə yaxın əhaliyə xidmət edir. Burada 80 nəfərdən çox, o cümlədən 19 hakim, 60 nəfər məhkəmə aparatı işçisi çalışacaq. Binada ümumilikdə 12 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncamının icrası çərçivəsində burada "elektron məhkəmə" və "elektron icra" informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılır. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular var.

Binəqədi Rayon Məhkəməsi də inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçündür. İctimai zonada vəkillər, dövlət ittihamçıları, icra məmurları və Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları üçün otaqlar var. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Binada vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və onların məlumatlılığının təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr








quraşdırılıb ki, bu da vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır. Bununla yanaşı, binada arxiv, maddi sübutların saxlanılması, vətəndaşların qəbulu, təqsirləndirilən şəxslərin vəkillə görüşü, dövlət ittihamçıları üçün otaqlar və tibb məntəqəsi mövcuddur. Konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur var. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətlərini əks etdirən kitablarla zəngindir.

Ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan Prezident İlham Əliyevə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi barədə məlumat verilib. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində qüvvəyə minən "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olunub.



Sonra səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu nümayiş etdirilib.

Bildirilib ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta hazırlanıb. Notariuslar həmin çantalarla hər hansı məkana bağlı olmadan fiziki və hüquqi şəxslərə bütün növ notariat hərəkətləri üzrə səyyar xidmət göstərə bilərlər. Eyni zamanda, yeni qanuna əsasən məsafədən

xidmətlərin göstərilməsini mümkün edən elektron ədliyyə köşkü də yaradılıb. Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq həmin köşklər notariuslarla videoəlaqə vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaq. Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən bu innovativ qurğudan istifadə edərək borca görə ölkədən çıxışına məhdudiyyət qoyulmuş şəxslər ödənişləri həyata keçirə və məhdudiyyəti avtomatlaşdırılmış qaydada aradan qaldıra bilərlər. Dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan mobil notariat qovluğunun tətbiqi nəticəsində istənilən şəxs ətrafında olan bütün notariat ofisləri və notariuslar, həmçinin notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və notariat hərəkətinin aparılmasında iştirak etməli şəxslər barədə məlumat alacaq. Funksiyanın əsas özəlliyi isə şəxsin iştirakçısı olduğu bütün notariat hərəkətləri ilə bağlı sənədlərin vahid mənbədə - mobil



telefonda saxlanılması, istənilən vaxt elektron versiyadan istifadə etməsi, eləcə də sənədin qüvvədən düşməsi barədə məlumatı dərhal almasıdır.

Dövlətimizin başçısına cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il fevralın 10-da imzalanan Sərəncamın icrası üzrə görülən işlər barədə də məlumat verildi, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında tətbiq olunan elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar nümayiş etdirildi. Hazırda bütün ölkə üzrə 460-dan çox məhkuma elektron nəzarət olunur. Sərəncama əsasən ictimai işlərin formal icrasının qarşısının alınması, bu sahədə fəaliyyətin səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirilir.

Son illərdə Azərbaycanda məhkəmə sistemində tətbiq edilən yeniliklər beynəlxalq aləmdə təqdir olunur. Bununla əlaqədar ötən il Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülüb. Bu il isə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə seçkilər keçirilib. Seçkilər quruma üzv 47 dövlətin nümayəndəsi tərəfindən gizli səsvermə yolu ilə aparılıb və Avropa Şurası tarixində ilk dəfə olaraq bu vəzifəyə Azərbaycan təmsilçisi seçilib.

Qurumun yeni rəhbəri, hakim Ramin Qurbanov Prezident İlham Əliyev ilə görüşüb.

Qeyd edək ki, Avropa Şurasında belə yüksək vəzifəyə seçkilərdə nailiyyətin əldə edilməsində dövlətimizin başçısının uğurlu xarici siyasəti və ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları əhəmiyyətli rol oynayıb.

# Prezident İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib






**Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Tədbirdə çıxış edən dövlətimizin başçısı 2018-ci ilin ölkəmiz üçün çox uğurlu il olduğunu, bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etdiyini bildirib.

Dünyada təhlükəli proseslərin yaşanmasına, beynəlxalq vəziyyətin daha da gərginləşməsinə baxmayaraq ölkəmizdə sabitliyin, təhlükəsizliyin təmin edildiyini, qarşıda duran bütün vəzifələrin icra olunduğunu deyən Prezident İlham Əliyev bu il Ermənistanda baş verən ciddi dəyişikliklər nəticəsində iyirmi il ərzində mövcud olan kriminal xunta rejiminin çökdüyünü diqqətə çatdırıb. Azərbaycanın ardıcıl və məqsədyönlü siyasətinin bu rejimin çökməsində



öz rolunu oynadığını vurğulayıb.

"Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir", - deyən dövlətimizin başçısı bildirib ki, biz beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik.

Azərbaycanın bu gün dünya miqyasında çox böyük hörmətə layiq olduğunu, beynəlxalq nüfuzumuzun artdığını deyən ölkə başçısı Avropa İttifaqı ilə imzalanmış əməkdaşlıq sənədində və NATO-nun Zirvə görüşündə qəbul edilən bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə verilən dəstəyin əhəmiyyətini vurğulayıb.

Prezident İlham Əliyev 2018-ci ildə ölkəmizdə iqtisadi məsələlərin də çox uğurla həll edildiyini diqqətə çatdırıb. İdman sahəsində qazanılan qələbələrdən danışan dövlətimizin başçısı bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edildiyini qeyd edib. Bildirib ki, bu qələbələr, sadəcə idman qələbələri deyil, həm də cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir.

Ölkə Prezidenti həmçinin, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edildiyini, respublikamızda beynəlxalq idman yarışlarının keçirilməsinin

ənənəyə çevrildiyini, Azərbaycanın idman sahəsində uğurlarının beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb, gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəyini qeyd edərək idmanın cəmiyyətimizin ayrılmaz hissəsinə çevrildiyini bildirib, idmançıları əldə edilmiş uğurlar münasibətilə təbrik edib, onlara yeni qələbələr arzulayıb.

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilib.

***

Təltif olunanlar arasında Ədliyyə Nazirliyi Xətai rayon İcra və Probasiya şöbəsinin rəisi vəzifəsini icra edən Vüqar Qasımov da olub. Ona Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanı təqdim edilib.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzülüb.



Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.



Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur", - deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi və Vətəninə qayıtdı. Bu qayıdış isə daha möhtəşəm oldu. Ulu Öndər xalqımızı öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi. Bu şəxsiyyət Ulu Öndərin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevdir.



# Ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər



**Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Vətəni və xalqı qarşısında müstəsna xidmətləri, dövlət müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində əvəzsiz rolu və misilsiz fəaliyyəti qədirbilən xalqımız tərəfindən hər zaman dərin minnətdarlıq hissi ilə yad edilir, Ulu Öndərin əziz xatirəsi daim uca tutulur.**

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin vəfatının on beşinci ildönümü ilə əlaqədar ədliyyə işçiləri Fəxri xiyabanda Ulu Öndərin abidəsini ziyarət edərək məzarı önünə gül dəstələri düzüb, dahi rəhbərə dərin ehtiramlarını bildiriblər. Sonra əbədiyaşar liderin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub, işıqlı xatirəsi anım mərasimində bir dəqiqəlik sükutla yad edilib.



Nazirliyin Heydər Əliyev muzeyində təşkil olunmuş mərasimdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan müdrik siyasətçi və dövlət xadimi Heydər Əliyevin şərəfli və mənalı həyat yolundan, zəngin dövlətçilik irsindən bəhs edib, dahi öndərin qurub yaratdığı müstəqil Azərbaycan dövlətinin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı və sürətli inkişafını qeyd edib, respub-

likamızın bütün sahələrdə, o cümlədən ədliyyə və məhkəmə-hüquq sistemində nailiyyətlərini vurğulayıb.

Tədbirdə çıxış edən nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov ədliyyə tarixinə həsr olunmuş "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" adlı kitab barədə məlumat verib. Bildirib ki, 100 illik tarixi olan Ədliyyə Nazirliyinin dövlət strukturu kimi yenidən təsis olunması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır və bu ərəfədə ərsəyə gəlmiş həmin kitabda Ulu Öndərin fəaliyyətinin bütün dövrlərində ölkəmizin hüquq, o cümlədən ədliyyə sisteminin inkişafı naminə göstərdiyi müstəsna xidmətləri xüsusi yer alıb.







Çıxış edənlər dahi liderin müəyyən etdiyi dövlətçilik prinsiplərinə daim sadiq qalacaqlarını, respublikamızın hərtərəfli inkişafı və müasirləşməsi naminə yorulmaz fəaliyyətində ölkə Prezidentinə layiqli yardımçı olmaqla qanunun aliliyinin, insan hüquq və azadlıqlarının qorunması üçün əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

Anım günü ilə bağlı ədliyyənin bütün struktur qurumlarında tədbirlər keçirilib, ədliyyə fəaliyyətinə cəlb olunmuş gənc könüllülər nazirliyin Heydər Əliyev muzeyində Ümummilli Liderin zəngin həyatı və çoxşaxəli fəaliyyətinə dair maraqlı ekspozisiyalarla tanış olub, onlar üçün mühazirə söylənilib, elektron məlumat lövhəsində foto-slaydlar və kinozalda filmlər nümayiş etdirilib.





# Ölkəmiz beynəlxalq antikorrupsiya hərəkatının fəal üzvüdür

**Dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Ölkəmiz 140 dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.**

9 dekabr - Beynəlxalq antikorrupsiya günü ərəfəsində Malayziyanın inzibati mərkəzi olan Putracaya şəhərində korrupsiyaya qarşı mübarizədə səylərin birləşdirilməsi rəmzi mənasını daşıyan və təmiz əli təsvir edən "Korrupsiyaya yox" heykəlinin açılış mərasimi təşkil olunub. Qətər dövlətinin dəstəyi ilə quraşdırılan və sayca üçüncü olan həmin heykəl 2016-cı ildə Cenevrədə, ötən il isə Vyanada ucaldılıb. Mərasimdə Malayziyanın Baş naziri Mahathir Məhəmməd, Qətərin Əmiri Təmim bin Həməd Al Tani, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuriy Fedotov iştirak ediblər. Ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov IAACA-nın vitse-prezidenti kimi xüsusi qonaq qismində həmin tədbirə qatılıb. Mərasimdən əvvəl ədliyyə naziri Qətərin Əmiri, Malayziyanın Baş naziri və BMT-nin yüksək təmsilçisi ilə görüşüb.







Malayziyanın Putracaya şəhərində "Korrupsiyaya yox" heykəlinin açılış mərasimi

Sonra nazir Qətər əmirinin təşəbbüsü ilə təsis olunmuş Beynəlxalq Antikorrupsiya təltifinin təqdimat mərasimində iştirak edib. Tədbirdə korrupsiya ilə mübarizədə innovativ təcrübələrin tətbiqinə, fundamental elmi təhlillərin aparılmasına və gənclərin antikorrupsiya tədbirlərində iştirakına görə ucaldılmış heykəli təcəssüm edən təltiflər təntənəli təqdim olunub.

Elə həmin günlərdə Putracaya şəhərində Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclası keçirilib. Tədbirdə təşkilatın fəaliyyətinə dair mühüm mövzular, xüsusilə Assosiasiyanın Konstitusiyasına dəyişikliklərin edilməsi, qurumun perspektiv proqramı, maliyyə və digər təşkilati məsələlər müzakirə olunub.

İclasda F.Məmmədov tərəfindən çıxışlar edilərək Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirləri, o cümlədən Azərbaycan brendi olan ASAN xidmətin yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliy-






Beynəlxalq Antikorrupsiya təltifinin təqdimatı mərasimi





İAACA İcraiyyə Komitəsinin iclası



yəti barədə məlumat verilib, müzakirə olunan məsələlərə dair bir çox təkliflər irəli sürülüb və yekdilliklə qəbul olunub.

Həmçinin, IAACA Konstitusiyasının yeni redaksiyası razılaşdırılıb və gələcək tədbirlər müəyyən olunub, o cümlədən korrupsiya ilə mübarizədə zərər çəkmiş şəxslərə dəstək göstərmək üçün IAACA-nın xüsusi maliyyə fondunun yaradılması qərara alınıb.

Tədbirdə ölkəmizin beynəlxalq antikorrupsiya fəaliyyətində yaxından iştirakı, təşkilatın inkişafına və antikorrupsiya əməkdaşlığının genişləndirilməsinə verdiyi mühüm töhfələr təqdir olunub.

Eyni zamanda, ölkəmizdə 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilməsi ilə əlaqədar iclasda video və foto slaydlar ilə müşayiət olunan xüsusi təqdimat keçirilib. Ədliyyə naziri Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən və o zaman qəbul edilən mütərəqqi demokratik qərarlardan, habelə ölkəmizin bugünkü nailiyyətlərindən danışıb. Xüsusilə Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin Azərbaycan ədliyyəsinə qayğısından bəhs edilib, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi ədliyyə və məhkəmə-hüquq islahatları barədə məlumat verilib. Bu sahədə ölkəmizin uğurlarının BMT, Avropa Şurası, Dünya Bankı, Beynəlxalq Qızıl Xaç Komitəsi və s. mötəbər beynəlxalq təşkilatlar tərəfindən təqdir olunması, o cümlə-

dən Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülməsi qeyd olunub, mütərəqqi nailiyyətlərimizin beynəlxalq aləmdə növbəti etirafının təzahürü olaraq Azərbaycan nümayəndəsinin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti vəzifəsinə yenicə seçilməsi vurğulanıb.

Çıxış zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri iştirakçıların xüsusilə diqqətinə çatdırılıb.

Təqdimatdan sonra IAACA İcraiyyə Komitəsinin üzvlərinə Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan xatirə rəmzləri təqdim olunub.

Səfər çərçivəsində Azərbaycan ədliyyə naziri tərəfindən bir sıra dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşlər keçirilərək antikorrupsiya sahəsində birgə fəaliyyətə dair faydalı danışıqlar aparılıb.

Tədbirlərdə Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev iştirak edib.

# Ədliyyə Nazirliyinin Kollegiya iclaslarında

**Noyabrın 30-da Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən Kollegiya iclasında ölkə Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"dan irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə edilib.**

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev tərəfindən dövlət qulluğu sahəsində aparılan islahatlar nəticəsində respublikamızda özünəməxsus dövlət qulluğu sistemi formalaşıb, ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş yeni Strategiya dövlət qulluğu sahəsində islahatların yeni mərhələsinin əsasını qoyub.

Kollegiyada bu mühüm sənədin dövlət qulluğunun inkişafında müstəsna əhəmiyyəti vurğulanıb, son illər dövlət qulluğunun xüsusi növü olan ədliyyə qulluğunun təkmilləşdirilməsi, ədliyyə orqanlarının hazırlıqlı, mənəvi cəhətdən saf kadrlarla komplektləşdirilməsi, bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatı, qulluğa qəbul prosedurlarının xeyli sadələşdirilməsi, ədliyyənin müxtəlif sahələrinə şəffaflıq əsasında işə qəbulla bağlı mütəmadi müsabiqə və müsahibələrin keçirilməsi qeyd olunub. Strategiyanın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı ilə Ədliyyə Nazirliyinin üzərinə düşən çoxsaylı vəzifələrin mütəşəkkil, vaxtında və dürüst yerinə yetirilməsi, o cümlədən dövlət qulluğunda kadr siyasətinin inkişafı, dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi, informasiya təminatının və elektron dövlət qulluğunun inkişaf etdirilməsi, bu sahəyə dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət və s. məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib, konkret tədbirlər müəyyən edilib.

Eyni zamanda, iclasda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il noyabrın 15-də "Notariat haqqında" Qanuna edilmiş əsaslı dəyişikliklərin əhaliyə keyfiyyətli hüquqi xidmətlərin göstərilməsində mühüm rol oynayan notariat fəaliyyətinin səmərəli təşkilində və vətəndaşların əlçatanlığı üçün yeni imkanların yaradılmasında müstəsna əhəmiyyəti qeyd olunub.

Bildirilib ki, notariat sahəsində ardıcıl islahatlar davam etdirilərək notariat orqanlarının səlahiyyətləri genişləndirilir, beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilib ki, bununla da notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artaraq Azərbaycanın nailiyyətləri qabaqcıl kimi qiymətləndirilir, bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.

Yeni Qanun notariat fəaliyyətinin daha da təkmilləşdiril-

məsinə xidmət etməklə bu sahədə institusional tədbirlərin, o cümlədən notariat ofislərində idarəçiliyin təkmilləşdirilməsi məqsədilə notariusun köməkçisi institutunun, həmçinin notariusların peşə hazırlığının artırılması üçün təlimlərin keçirilməsi, notariat təcrübəsinin formalaşması və bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi məqsədilə Notariat Palatasının yaradılmasını nəzərdə tutur. Həmçinin notariat xidmətlərinin məsafədən, video əlaqə vasitəsi ilə həyata keçirilməsi, bu məqsədlə sərhəddə, hava və dəniz limanlarında, dəmiryolu vağzallarında quraşdırılacaq xüsusi ədliyyə köşkləri vasitəsilə ilk dəfə olaraq, notariat sənədlərinin tərtib olunaraq əldə edilməsi mümkün olacaqdır. Bundan başqa səyyar elektron xidmətlər göstərmək üçün xüsusi çantalar hazırlanıb.

Kollegiyada qanunvericiliyə edilmiş dəyişikliklərin və Qanunun tətbiqi barədə dövlət başçısının 2018-ci il 20 noyabr tarixli Fərmanının dönmədən və dürüst icrası ilə bağlı tapşırıqlar verilib.

Bununla yanaşı, beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətin təkmilləşdirilməsi, ölkəmizin sülhsevər siyasətinin hər zaman aşılanması, beynəlxalq tədbirlərdə və görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin geniş ictimaiyyətin diqqətinə çatdırılması, xarici siyasət sahəsində əlaqələndirmə işinin daha mükəmməl həyata keçirilməsi ilə bağlı əlavə göstərişlər verilib.

Eyni zamanda, ədliyyə orqanlarında şəffaflığın və aşkarlığın təmin olunması, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi üçün xeyli işlərin görüldüyü, o cümlədən nazirliyin internet səhifəsinin (www.justice.gov.az) interaktiv rejimdə fəaliyyət göstərməsi bildirilib. Saytın Nazirlər Kabinetinin 04.09.2012-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"ə uyğun olaraq müasir dizaynda hazırlanmış, ədliyyəyə əlçatanlığı asanlaşdırmaq məqsədilə funksionallığı artırılmaqla daha geniş məlumatları əks etdirən yeni versiyasının prezentasiyası keçirilərək, onun tətbiqi ilə bağlı tapşırıqlar verilib.

Kollegiyada dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə bağlı görülən işlər qeyd olunaraq yeni qəbul olunan qanunvericilik aktlarının azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azalmasına, alternativ cəzalara daha çox üstünlük verilməsinə imkan yaratdığı vurğulanıb və probasiya xidmətinin, elektron nəzarət vasitələrinin, ictimai işlər və digər alternativ cəzaların icrası sahəsində fəaliyyətin ictimai əhəmiyyəti nəzərə alınaraq xüsusi video-çarxlar, televiziya verilişləri hazırlandığı və ictimaiyyətin geniş maariflənləndirildiyi bildirilib. İclasda azadlıqdan məhrumetməyə alternativ cəzaların mükəmməl icrası ilə bağlı tapşırıqlar verilib, o cümlədən müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı yeni qaydalar təsdiq edilib.

Bununla yanaşı, ədliyyə fəaliyyətini tənzimləyən digər normativ hüquqi akt layihələrinə baxılaraq qəbul olunub, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

**Ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı üzrə mütərəqqi islahatlar aparılır, son illər ədliyyə sisteminin müasirləşdirilməsinə xidmət edən mühüm qərarlar qəbul olunub, bir çox nailiyyətlər əldə edilib.**

Ədliyyə sahəsində islahatların davamlılığının təmin olunması məqsədilə dövlət başçısının 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq olunub *(Dövlət Proqramı jurnalımızın bu sayında dərc edilib).*

Dekabrın 27-də ədliyyə na-



ziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş nazirliyin kollegiya iclasında Dövlət Proqramının icrası ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub.

Kollegiyada çıxış edən nazir müstəsna əhəmiyyətə malik olan Dövlət Proqramının möhtərəm Prezidentimizin ədliyyə sisteminə böyük diqqət və qayğısının növbəti təzahürü olduğunu vurğulayıb, proqramın bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan ədliyyəsinin gələcək inkişafında "yol xəritəsi" olmaqla ədliyyə orqanlarının və məhkəmələrin işinin müasir tələblərə uyğun təşkilinə, əhaliyə yüksək keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, bu orqanlara müraciət imkanlarının asanlaşmasına və vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edəcəyini qeyd edib.

İclasda Dövlət Proqramı ilə Ədliyyə Nazirliyinin üzərinə qoyulan vəzifələrin, o cümlədən işin müasirləşdirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, innovativ texnologiyaların və elektron sistemlərin geniş tətbiqi, şəffaflığın artırılması ilə bağlı və digər tədbirlərin vaxtında və mütəşəkkil icrasının təşkilinə dair konkret tapşırıqlar verilib.

Kollegiyada nazirliyin əsas fəaliyyət istiqamətləri üzrə cari ildə görülmüş işlər müzakirə olunub.

Bildirilib ki, dövlət başçısının "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci il cümhuriyyətimizin, həmçinin Azərbaycan ədliyyəsinin 100 illiyi ilə əlamətdar olub. Bu münasibətlə nazirlik tərəfindən silsilə tədbirlər təşkil olunub, o cümlədən "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans keçirilib, ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" adlı xüsusi kitab və film, digər nəşrlər və maarifləndirici vasitələr hazırlanıb.



İclasda ədliyyə fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi ilə bağlı görülən tədbirlər qeyd olunaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların

tətbiqinə geniş imkan yaratdığı vurğulanıb. Bu məqsədlə səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu hazırlanıb və dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin açılışı zamanı ölkə Prezidentinə nümayiş etdirilib.

Kollegiyada dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş işlərə toxunularaq azadlıqdan məhrumetməyə alternativ, o cümlədən azadlığın məhdudlaşdırılması cəzasının icrasında elektron qolbaqların tətbiqi daim genişləndirilərək, artıq 500-dən çox məhkuma tətbiq edildiyi, ictimai işlər növündə cəzanın icrasında müsbət dönüşə nail olunduğu və təsirli nəzarətin həyata keçirildiyi vurğulanıb.

Həmçinin, mübahisələrin məhkəmədənkənar alternativ həlli üsulu olan mediasiya institutunun yaradılması üzrə görülən tədbirlər, o cümlədən bu sahədə Avropa İttifaqı ilə əməkdaşlıq, qanunvericiliyə bununla bağlı dəyişikliklərin edilməsinə dair layihələrin hazırlanması barədə məlumat verilib, habelə məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, o cümlədən normativ bazanın təkmilləşdirilməsi məqsədilə bu sahəni tənzimləyən İcra Məcəlləsinin layihəsinin hazırlanması diqqətə çatdırılıb.

Eyni zamanda, Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının icrası çərçivəsində ədliyyə fəaliyyətində şəffaflığın təmin edilməsi, ictimai iştirakçılığın tətbiqi, elektron xidmətlərin dairəsinin artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi üzrə görülən işlərdən danışılıb, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsinə toxunularaq cari ildə bir sıra xarici dövlətlərin ədliyyə nazirlərinin ölkəmizə səfərlərinin və imzalanmış sənədlərin qarşılıqlı fəaliyyətin inkişafına töhfə verdiyi vurğulanıb.

Bununla yanaşı, kollegiyada qarşıda duran vəzifələr müzakirə olunaraq, növbəti ildə prioritet istiqamətlər üzrə görüləsi tədbirlər müəyyən edilib, o cümlədən "elektron məhkəmə" informasiya sisteminin tətbiqinin sürətləndirilməsi, əhalinin elektron normativ bazalara əlçatanlığının yaxşılaşdırılması, elektron sənəd dövriyyəsinin genişləndirilməsi, cəzaların icrası, tibb və ekspertiza sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlərə dair və digər konkret tapşırıqlar verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi akt layihələrinə baxılıb, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə fəaliyyəti təkmilləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, infrastruktur müasirləşdirilir. Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatalada rayon məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi bu sahədə fəaliyyətin yüksək səviyyədə təşkilinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə verib.**

Noyabrın 8-də yeni binanın açılışında iştirak etmiş ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Şəki Apellyasiya Məhkəməsində bölgənin məhkəmə sədrləri və hakimlərinin iştirakı ilə geniş müşavirə keçirib.

Tədbirdən əvvəl nazir və Şəki İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramını bildiriblər.

Dövlət başçısının Şəkidə yenicə açılışını etdiyi Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ASAN Həyat" Kompleksi və "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanış olunub.



Şəki Apellyasiya Məhkəməsində bölgənin məhkəmə sədrləri və hakimləri ilə müşavirə

Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirak etdiyi müşavirədə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər, mövcud nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

F.Məmmədov ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlərdən, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsindən, hakimlərin Avropada nümunə kimi göstərilən şəffaf seçimindən, "Elektron məhkəmə" informasiya sisteminin və yeni məhkəmə infrastrukturunun yaradılmasından bəhs edib, ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən işlərdən danışıb.

Bildirilib ki, Cinayət Məcəlləsinin dekriminallaşması nəticəsində yeni Qanunun təsiri altına düşən 5.700-ə yaxın məhkumun cəzası yüngülləşdirilib, o cümlədən 1.700-dək şəxs azadlıqdan məhrumetmə və digər cəzalardan azad olunub, azadlığın məhdudlaşdırılması yeni cəza növünə məhkum olunmuş 500 nəfərə yaxın şəxs üzərində elektron qolbaq tətbiq olunmaqla səmərəli probasiya nəzarəti həyata keçirilir.

Müşavirədə Sərəncamla məhkəmələrin üzərinə düşən mühüm vəzifələr diqqətə çatdırılaraq insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyəti vurğulanıb.

Həmçinin, vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyaya şərait yaradan halların qarşısının alınması ilə bağlı dövlət başçısının qəti tapşırıqlarının icrası üzrə tədbirlər qeyd olunub, məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf hakimlərin təmsil olunması, apellyasiya məhkəmələrindən prinsipiallığın artırılması, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin zəruriliyi vurğulanıb, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, etik davranış qaydalarına dönmədən əməl edilməsi üzrə qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə mövcud vakansiyaların doldurulması üzrə görülən tədbirlərə toxunularaq ilk dəfə olaraq ali və bütün apellyasiya məhkəmələrinin 30 hakimin təyinatı ilə tam komplektləşdirildiyi bildirilib, səlahiyyət müddəti bitmiş 60-dan çox, o cümlədən müşavirədə iştirak edən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi qeyd olunub, vətəndaşların haqlı narazılığını doğuran halların yolverilməzliyi vurğulanıb.

Həmçinin, şəffaf və çoxmərhələli imtahanlarda müvəffəqiyyət qazanaraq hakim vəzifəsinə layiq bilinmiş 108 nəfər namizəd barəsində yaxın günlərdə təyinatların aparılacağı və bununla da hakim korpusunun tam əksəriyyətinin komplektləşdiriləcəyi bildirilib.






**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək məhkəmə sistemi müasirləşdirilir, qanunvericilik təkmilləşdirilir, məhkəmə hakimiyyətinin müstəqilliyi gücləndirilir və özünüidarə səlahiyyətləri ilbəil genişləndirilir.**

Ölkə Prezidentinin dekabrın 21-də imzaladığı sərəncamlarla 200-dən çox hakim barədə müvafiq təyinatlar aparılaraq hakim korpusu yeni nəsil hüquqşünaslarla möhkəmləndirilib. Mövcud vakansiyaların tam əksəriyyəti komplektləşdirilməklə hakimlərin iş yükü xeyli azaldılıb, işlərə daha keyfiyyətlə və vaxtında baxılmasına şərait yaranıb.

Dekabrın 25-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Bakı və Sumqayıt apellyasiya məhkəmələrinin yeni təyin edilmiş sədr müavinləri və kollegiya sədrlərinin, bu məhkəmələrin yurisdiksiyasına daxil olan və digər birinci instansiya məhkəmələri sədrlərinin, habelə Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirakı ilə geniş müşavirə keçirib.

Çıxış edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə respublikamızın hərtərəfli sürətli tərəqqisini və əldə olunan yüksək nailiyyətləri qeyd edib, məhkəmə-hüquq islahatlarından və yeniliklərdən bəhs edib, bu ərəfədə dövlət başçısının Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışını etməsinin məhkəmə hakimiyyətinə verilən böyük önəmin növbəti təzahürü olduğunu vurğulayıb.

Müşavirədə, həmçinin son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən məqsədyönlü tədbirlər qeyd edilib, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər, bununla əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Eyni zamanda dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması, məhkəmələrdə şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi vurğulanıb, ötən dövrdə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi, kobud qanun pozuntularına yol verdiklərinə görə 120-dən çox hakimin məhkəmə sistemindən kənarlaşdırılması qeyd olunub, korrupsiya hüquqpozmalarına görə 34 hakimin intizam məsuliyyətinə cəlb edildiyi, o cümlədən onlardan 8 nəfərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verildiyi, 11 nəfərin aşağı vəzifəyə keçirildiyi və ya iş yerinin dəyişdirildiyi bildirilib.

Müşavirədə hakimlər tərəfindən bəzi hallarda süründürməçilik və digər nöqsanlara yol verilməsi, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə etinasız yanaşılaraq vətəndaşlarla kobud rəftar edilməsi qeyd olunub, belə halların insanların haqlı narazılığına səbəb olduğu bildirilib.

Bununla bağlı qarşıda duran vəzifələr, o cümlədən etik davranış qaydalarına dönmədən əməl edilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi diqqətə çatdırılıb, apellyasiya məhkəmələrindən prinsipiallığın artırılması, qanun pozuntularına ciddi reaksiya verilməsi, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

# Azərbaycan nümayəndəsi CEPEJ-in prezidenti seçilib

**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər görülür.**

Bu sahədə Avropa Şurası ilə birgə işçi qrupları yaradılaraq məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, hakimlərin Avropada ən mütərəqqi və şəffaf seçim qaydası müəyyən edilib, məhkəmə sisteminin özünüidarə səlahiyyətləri ilbəil genişləndirilib.

Həyata keçirilən islahatlar zamanı Avropa Şurası və onun mühüm hüquq təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ilə sıx işgüzar əlaqələr qurulub və 2014-cü ildə CEPEJ-in Plenar iclası ilk dəfə olaraq Strasburqdan kənarda, Bakıda təşkil olunub.

Hakimlərin seçimində ölkəmizin müsbət təcrübəsi CEPEJ tərəfindən örnək kimi dəyərləndirilərək digər dövlətlərə tövsiyə edilib, həmçinin məhkəmə sisteminin inkişafı, müasirləşdirilməsi və yeni





unikal infrastrukturunun yaradılması sahəsində Azərbaycanın öncül dövlət olduğu vurğulanıb. Təsadüfi deyil ki, ötən il ölkəmiz məhkəmə sistemindəki uğurlarına görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub.

Ölkəmiz həmçinin, Komissiyanın işində fəal iştirak edərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov uzun müddət CEPEJ-in Avropa Məhkəmə Sistemlərinin Qiymətləndirilməsi üzrə Komitəsinin eksperti, qurumun Bürosunun üzvü və vitse-prezidenti kimi təmsil olunub. Azərbaycanın nümayəndəsi bir çox Avropa dövlətlərində məhkəmə sistemlərinin qiymətləndirilməsində yaxından iştirak edib, qiymətləndirmə qruplarına rəhbərlik edib, mötəbər beynəlxalq tədbirlərdə, habelə Avropa Şurasının müraciətləri əsasında xarici dövlətlərdə CEPEJ-in fəaliyyətini, xüsusilə ölkəmizin məhkəmə-hüquq sistemindəki müsbət təcrübəsini təbliğ edib, həmkarlarına aşılayıb.

Dekabrın 4-də CEPEJ-in Strasburqda keçirilən növbəti Plenar iclasında qurumun prezidentinin, vitse-prezidentinin və Bürosunun iki üzvünün seçkisi keçirilib.

Məhkəmə islahatları sahəsində mütərəqqi nailiyyətlərimiz, habelə ölkəmizin Komissiyanın işində fəal iştirakı, səmərəli təmsilçiliyi və verdiyi dəyərli töhfələr nəzərə alınaraq, seçkilər nəticəsində Azərbaycanın nümayəndəsi Ramin Qurbanov CEPEJ-in prezidenti seçilib.

Azərbaycan Respublikasının 50-dən çox dövlətin məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə köməklik edən və ədliyyə fəaliyyətinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verən CEPEJ-in prezidenti kimi yüksək səviyyədə təmsil olunması dövlətimizin beynəlxalq aləmdə artan nüfuzunun daha bir əyani təzahürüdür.

# Ədliyyə naziri Balakən və Kürdəmirdə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Ədliyyə naziri Fikrət Məmmədov noyabrın 8-də Balakən rayonu Mədəniyyət Mərkəzində Balakən, Zaqatala və Qax rayonlarından, dekabrın 21-də isə Kürdəmir rayonu Heydər Əliyev Mərkəzində Kürdəmir, Ucar və Ağsu rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbullardan əvvəl nazir və rayonların İcra Hakimiyyətinin başçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri ilə müşavirələr keçirib.

Müşavirələrdə dövlət başçısının rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı üzrə həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlardan bəhs olunub, ədliyyə fəaliyyətinin müasirləşməsi, innovativ texnologiyaların tətbiqi, iş şəraitinin yaxşılaşdırılması, məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi, probasiya xidmətinin səmərəli fəaliyyətinin təşkili ilə bağlı tapşırıqlar verilib, vətəndaş məmnunluğunun təmin olunması, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl olunması vurğulanıb.



# Məhkəmə-Hüquq Şurasının iclası

**Dekabrın 21-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə məqsədyönlü tədbirlər vurğulanıb. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin keçirilməsi, insanların məhkəmələrə müraciət imkanlarının asanlaşması, "Elektron Məhkəmə" informasiya sisteminin yaradılmasının nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir olunması bildirilib.**

Məhkəmə infrastrukturunun müasirləşdirilməsində dövlət başçısının yüksək dəstəyi qeyd olunub, yeni inşa edilən və ən müasir texnologiyalarla təmin olunmuş müasir məhkəmə bina və komplekslərinin açılışında ölkə Prezidentinin şəxsən iştirakının məhkəmə hakimiyyətinin möhkəmləndirilməsinə dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

İclasda Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə bir qrup hakimlərin və Məhkəmə-Hüquq Şurası üzvlərinin "Əməkdar hüquqşünas" fəxri adına layiq bilinməsi, habelə orden və "Tərəqqi" medalı ilə təltif edilməsi qeyd olunub.

Həmin təltiflər təntənəli təqdim edilib. Dövlət təltiflərinə layiq bilinmiş şəxslər çıxış edərək onların fəaliyyətinə verilən yüksək qiymətə görə ölkə başçısı cənab İlham Əliyevə sonsuz ehtiramlarını ifadə edib, bunun böyük məsuliyyət hissi yaratdığı, məhkəmə hakimiyyətinin inkişafı naminə daha fədakarlıqla çalışmağa ruhlandırdığını bildiriblər.



Eyni zamanda Məhkəmə-Hüquq Şurasının iclasında səlahiyyət müddəti bitmiş 56 hakimin və 7 məhkəmə sədrinin fəaliyyətinin qiymətləndirilməsi nəticələri prinsipial müzakirə edilib, 4 məhkəmə sədrinin işində nöqsan və çatışmazlıqlara görə aşağı işə keçirilməsi, vətəndaşların haqlı narazılığını doğuran pozuntulara yol verməsi nəzərə alınaraq 6 hakimin səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul olunub. 57 nəfərin peşəkarlıq səviyyəsinə uyğun müxtəlif hakim vəzifələrinə təyinatı məqsədəuyğun bilinib.

Qeyd olunub ki, ölkəmizdə hakimliyə namizədlərin Avropada nümunə kimi göstərilən obyektiv seçimi nəticəsində 800-dən çox namizəd sırasından 108 nəfər hüquqşünas çoxmərhələli imtahanları, o cümlədən 1 il müddətində davam etmiş təlimləri və məhkəmələrdə, habelə Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vurub. İclasda hakim korpusunun həmin gənc nəsil hakimliyə namizədlər hesabına möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin, apellyasiya instansiyası məhkəmələrində sədr müavini və kollegiya sədri vəzifələrinin komplektləşdirilməsi, hakim kadrlarından daha səmərəli istifadə edilməsi məqsədilə rotasiya ehtiyacı, hakimlərin iş yerinin dəyişdirilməsi barədə müraciətləri nəzərdən keçirilib, ətraflı müzakirələr aparılmaqla dövlət başçısına müvafiq təkliflər verilib.

Bildirilib ki, bu sahədə görülən tədbirlər nəticəsində məhkəmə sistemində mövcud olan bütün vakansiyaların tam əksəriyyəti komplektləşdiriləcəkdir ki, bu da hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcəkdir.

# “Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər” mövzusunda beynəlxalq konfrans





**Noyabrın 15-16-da Bakıda Avropa Şurasının, Hüquqşünasların Beynəlxalq Komissiyasının və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Tədbirdə 16 xarici ölkənin, o cümlədən Belarus, Gürcüstan, Rusiya, Türkiyə, Niderland, Böyük Britaniya, Fransa, İsveçrə, Qazaxıstan, Ukrayna, Özbəkistan Vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurasının, Avropa İttifaqının, Hüquqşünasların Beynəlxalq Komissiyasının, Birləşmiş Millətlər Təşkilatının, Avropa Vəkillər İttifaqının, Hüquq cəmiyyətləri və digər beynəlxalq təşkilatların nümayəndələri, habelə Milli Məclisin deputatları, Ali Məhkəmənin, Konstitusiya Məhkəməsinin və digər məhkəmələrin hakimləri, dövlət orqanları və qeyri-hökumət təşkilatlarının, Vəkillər Kollegiyasının təmsilçiləri, yerli və



beynəlxalq ekspertlər iştirak ediblər.

4 sessiyada keçirilmiş konfransda müvəkkillərin insan hüquqlarının müdafiəsini həyata keçirərkən vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılıb.

Konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərov bildirib ki, vəkillik institutunun rolunun və müstəqilliyinin artırılmasına dair nəzərdə tutulan müzakirələr və təcrübə mübadiləsi bu təsisatın perspektivləri barədə yeni ideyaların formalaşmasına töhfə verəcək. Vəkillik institutu hər bir demokratik cəmiyyətin, hüquqi dövlətin mühüm elementlərindən biridir. Hakimlər və prokurorlarla yanaşı, vəkillər də qanunun aliliyi və insan hüquqlarının təmin edilməsində çox vacib missiya həyata keçirirlər. Onların müstəqil və azad şəkildə fəaliyyət göstərə bilməsi insan haqlarının və ədalətli məhkəmə hüququnun təmin olunması ilə bağlıdır. Təsadüfi deyil ki, BMT və Avropa Şurası tərəfindən vəkilliklə bağlı Əsas prinsiplər (Vəkillərin rolu haqqında), Tövsiyələr (Vəkillik peşəsinin azad icra edilməsi üzrə) kimi mühüm sənədlər qəbul olunub.

Konfransın işinə uğurlar arzulayan nazir müavini qeyd edib ki, Azərbaycanda vəkilliyin təşəkkülü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə referendumla qəbul edilmiş Konstitusiyada hüquqi yardımla bağlı müddəalar yer alıb. Ölkəmizdə 1999-cu ildə mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun qəbul olunub. Prosessual qanunvericilikdə onun statusu gücləndirildi və bununla da ölkəmizin tarixində ilk

dəfə olaraq vəkillik tam müstəqil və hakimiyyətin heç bir qolundan asılı olmayan təsisata çevrildi. Hazırda vəkillik fəaliyyəti dövlətimizin diqqət mərkəzindədir. Bu sahəni tənzimləyən qanunvericilik təkmilləşdirilir, dövlətimizin başçısının sərəncamlarına, habelə insan hüquqlarının müdafiəsi, şəffaflığın artırılması məsələləri ilə bağlı və digər sahələr üzrə müxtəlif Dövlət və Milli Fəaliyyət proqramlarına uyğun olaraq, vəkillik institutunun gücləndirilməsi, onun müstəqilliyinin təmin edilməsi və fəaliyyətinin səmərəliliyinin artırılması, Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması, vəkillərin peşəkarlığının və göstərdikləri hüquqi yardımın səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülür. Vəkillər məhkəmələrin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində bu məhkəmə təsisatlarının yaradıldığı andan təmsil olunurlar.

A.Cəfərov diqqətə çatdırıb ki, bu il fevralın 22-də ölkəmizdə vəkilliyin inkişafı ilə bağlı dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən, Vəkillər Kollegiyasının maddi-texnik təminatı daha da yaxşılaşdırılıb, hüquqi yardım haqqı artırılıb, digər tədbirlər həyata keçirilib.

Yaradılmasının 100 illiyi qeyd olunan Ədliyyə Nazirliyi bu gün sovet dövründən fərqli olaraq Vəkillər Kollegiyası ilə bərabər tərəfdaş kimi uğurla əməkdaşlıq edir. Bu əməkdaşlıqda əsas yük Ədliyyə Akademiyasının üzərinə düşür. Əvvəllər vəkillərin tədrisi ilə məşğul olan qurum ümumiyyətlə mövcud olmadığı halda, hazırda Akademiyada vəkilliyə namizədlərin peşəyə buraxılması məqsədilə onların ilkin, fəaliyyət göstərən vəkillərin isə davamlı tədrisi, ixtisaslarının artırılması həyata keçirilir. Bu zaman insan haqlarının müdafiəsi məsələlərinə, xüsusilə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinə xüsusi diqqət yetirilir. Son bir il yarım ərzində Akademiya ilə birgə layihələr çərçivəsində keçirilən 22 təlimə 400-dən çox vəkil cəlb edilib.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov tədbir iştirakçılarını salamlayaraq, konfransın məqsədi və proqramı barədə məlumat verib. O, son dövrdə Azərbaycanda vəkillik peşəsinin inkişafı istiqamətində aparılan tədbirlərdən, bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli Sərəncamının əhəmiyyətindən danışıb. Ölkəmizdə bu sahədə mövcud çatışmazlıqlar və onların aradan qaldırılması üçün görülən işlər barədə məlumat verən Kollegiya sədri konfransın müxtəlif ölkələrlə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq üçün mühüm rol oynadığını bildirib.

Avropa Şurasının insan hüquqları üzrə direktoru Kristof Poirel, Hüquqşünasların Beynəlxalq Komissiyasının baş katibi Saman Zarifi, Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxışlarında konfransın Bakıda keçirilməsini yüksək qiymətləndirib, təşkilatçılığa görə Azərbaycan tərəfinə təşəkkürlərini bildiriblər.

Diqqətə çatdırılıb ki, mühüm mövzuya həsr edilən konfrans yerli və əcnəbi vəkillər üçün çox əhəmiyyətlidir. Konfrans vəkilləri, hüquqşünasları maraqlandıran məsələlərin müzakirəsi, bu sahədə təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkandır.

Açılış çıxışlarından sonra konfrans işini sessiyalarla davam etdirib. Sessiyalarda müxtəlif aktual mövzularda çıxışlar dinlənilib, vəkillik sahəsində iştirakçı dövlərin təcrübələri bölüşülüb.

# Avropa Şurası ilə səmərəli əməkdaşlıq davam edir

Bakıda keçirilən "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan AŞ İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Departamentin İnsan hüquqları üzrə Direktorluğunun rəhbəri Kristof Puarel və İnsan hüquqları siyasəti və inkişaf departamentinin rəhbəri Mixail Lobov ilə oktyabrın 15-də ədliyyə nazirinin müavini Azər Cəfərovun görüşü keçirilib.

Görüşdə AŞ-nın Azərbaycandakı Ofisinin rəhbəri Zoltan Hernyes iştirak edib.

Azərbaycan və AŞ arasında səmərəli əməkdaşlığı qeyd



edən nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, yeni məhkəmə və məhkəmə təsisatlarının yaradılması, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan və vəkillərin də daim təmsil olunduğu Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin fəaliyyəti, elektron məhkəmə sisteminin tətbiqi və infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verib, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçiminə toxunaraq bu günlərdə növbətin seçimin başa çatdığını vurğulayıb.

Bildirilib ki, bu islahatlar beynəlxalq aləmdə təqdir olunaraq ölkəmiz "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülüb.

AŞ-nın Azərbaycanla müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini söyləyən qonaqlar Ədliyyə Nazirliyinin vacib tərəfdaş olduğunu, məhkəmə-hüquq sahəsindəki nailiyyətlərin Avropa Şurası tərəfindən yüksək qiymətləndirildiyini, elektron məhkəmə sisteminin digər ölkələr üçün maraqlı təcrübə olduğunu qeyd edib, yaxşı praktikaların mübadiləsinin əhəmiyyətinə toxunublar. Həmçinin, milli məhkəmələr tərəfindən çıxarılan qərarlarda İnsan Hüquqları üzrə Avropa Konvensiyasının presedentlərinə istinad edilməsini təqdir edərək belə qərarların digər ölkələrə örnək olması üçün tərcümə edilərək yayılmasının vacibliyini vurğulayıblar.

Söhbət zamanı Avropa Konvensiyasının presedentlərinin öyrənilməsi və tətbiqi, Avropa Məhkəməsinə tədris səfərlərinin, həmçinin Məhkəmənin hakimlərinin və hüquqşünaslarının iştirakı ilə video-konfrans vasitəsilə distant təlimlərin təşkili qeyd olunub, qanunvericiliyin, məhkəmə təcrübəsinin təhlilini və tədris tədbirlərini nəzərdə tutan yeni layihənin perspektivlərindən danışılıb.

Görüşdə, həmçinin probasiya və mediasiya institutlarının tətbiqi, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası və əməkdaşlıq edilə bilən digər sahələrlə bağlı faydalı fikir mübadiləsi aparılıb.

# İkinci Avrasiya Hüquq Qurultayı

**Dekabrın 16-19-da Bakıda ikinci Avrasiya Hüquq Qurultayı keçirilib.**

40 ölkədən 250 nümayəndənin iştirak etdiyi tədbirdə Türkiyə Hüquq Platformasının sədri Ahmet Akcan Türkiyə ilə Azərbaycan arasında hüquq sahəsində əlaqələrin inkişaf səviyyəsinin məmnunluq doğurduğunu bildirib. Qeyd edib ki, 2014-cü ildə Türkiyə-Azərbaycan hüquq platformasının yaradılması iki ölkə arasındakı yaxşı əlaqələrin nəticəsidir. O, bu il Bakıda "beynəlxalq ədalət üçün beynəlxalq hüquq" mövzusunda keçirilən ikinci Avrasiya Hüquq Qurultayında insanlığa qarşı cinayətlərlə, terrorizmlə mübarizə kimi məsələlərin müzakirə ediləcəyini deyib.

Ədliyyə nazirinin müavini Azər Cəfərov çıxışında Qurultayın əhəmiyyətindən bəhs edərək deyib: "Avrasiya Hüquq Qurultayı məhz Azərbaycan Xalq Cümhuriyyətinin, həmçinin Azərbaycan ədliyyə sisteminin qurulmasının 100 illiyinin qeyd olunduğu bir zamana təsadüf edir". Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişaf etdiyini qeyd edən nazir müavini bildirib ki, Sovet İttifaqı dövründə Azərbaycanda hüquq sistemində qanunun aliliyi təmin olunmurdu və hüquqları təmin edən müstəqil məhkəmə haki-






miyyəti mövcud deyildi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə demokratik cəmiyyətə xas məhkəmə-hüquq sistemi yaradılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib. Qanunvericilik əsaslı surətdə yenilənib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, müvafiq infrastruktur konseptual baxımdan müasirləşdirilib. Bu gün də davamlı xarakter daşıyan məhkəmə islahatları Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən təqdir olunur. Hakimlərin seçimində tətbiq edilən prosedurlar Avropa Şurası tərəfindən digər dövlətlərə tövsiyə edilir.

A.Cəfərov diqqətə çatdırıb ki, beynəlxalq təşkilatların fəaliyyətində bəzən beynəlxalq hüquq prinsiplərinin gözlənilməməsinə, pozulan insan hüquqlarının bərpasının sonadək nail olunmamasına, ikili standartların tətbiqinə rast gəlinir. "Məsələn, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması açıq şəkildə tələb olunur. Lakin işğalçı ölkə bu qətnamələrin tələblərinin yerinə yetirilməsinə məcbur edilmir. Buna oxşar sənədlər Avropa Şurası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilib", - deyə nazir müavini söyləyib.

Beynəlxalq Hüquqşünaslar Birliyinin sədri vəkil Necati Ceylan 40 ölkədən yüzlərlə hüquqşünası birləşdirən Birliyin ədalətin, hüququn, bəşəri dəyərlərin qorunması istiqamətində fəaliyyəti barədə məlumat verib, bildirib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox insan evsiz-eşiksiz qalsa da, bu ədalətsizliyə beynəlxalq birlik tərəfindən hələ də lazımi qiymət verilmir.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Azərbaycan Hüquqşünaslar Konfederasiyasının sədri Əli Hüseynli, Türkiyə Böyük Millət Məclisinin deputatı Cahid Özkan, Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov bu tədbirin bütövlükdə region üçün böyük bir hadisə olduğunu və əhəmiyyətini vurğulayıblar.

Türkiyə ədliyyə nazirinin müavini Yıldız Səfərinoğlu qeyd edib ki, qurultay fərqli coğrafiyalarda yaşayan, bənzər problemlərə məruz qalan, onları həll etmək üçün çalışan hüquqşünasların bir araya gəlməsi, fikir mübadiləsi aparması baxımından böyük əhəmiyyətə malikdir. Türkiyə-Azərbaycan əlaqələrinin hər zaman yüksək səviyyədə olduğunu deyən Türkiyə ədliyyə nazirinin müavini regionda sülhün və təhlükəsizliyin təmin olunmasında ölkələrimizin həmrəyliyinin xüsusi rol oynadığını vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Çingiz Əsgərov Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün düşmüş, əsir və girov götürülmüş azərbaycanlıların pozulmuş hüquqlarından danışıb.

Qurultay işini panel müzakirələrlə davam etdirib.

# Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyasında

**Ədliyyə orqanlarına qulluğa qəbul üzrə Müsabiqə Komissiyası bildirir ki, sayca on beşinci müsabiqə üzrə test imtahanından uğur qazanmış və qanunvericiliyin tələblərinə cavab verən 163 namizədlə ikinci mərhələdə aşkarlıq şəraitində fərdi qaydada söhbət aparılıb.**



Müsabiqə Komissiyasının iclası

Hüquqşünas alimlərin və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi bu mərhələdə 82 nəfər zəruri bal toplayaraq söhbətdən müvəffəqiyyətlə keçib.

Müsabiqə Komissiyası tərəfindən həmin namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə Ədliyyə Akademiyasında xüsusi proqram əsasında icbari təlimə cəlb olunmaları barədə qərar qəbul edilib.

**Ədliyyə orqanlarının sağlam mənəviyyata, yüksək hazırlığa və peşəkarlığa malik müasir düşüncəli yeni nəsil hüquqşünaslarla möhkəmləndirilməsi məqsədilə davamlı olaraq açıq müsabiqələr keçirilir.**

Hazırda mövcud vakant ştat vahidlərinin komplektləşdirilməsi üçün peşəkar kadrlara olan ehtiyacı nəzərə alaraq Müsabiqə Komissiyası növbəti açıq müsabiqə elan edir.

Müsabiqə üzrə vakant vəzifələr əsasən probasiya, icra və qeydiyyat xidmətlərində, habelə regional ədliyyə idarələrindədir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları müsabiqəyə dəvət olunur.

Müsabiqənin birinci mərhələsində - test imtahanında iştirak üçün müraciətlərin qəbulu Nazirliyin əhaliyə göstərdiyi "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə iştirak üçün namizədin qeydə alınması" adlı elektron xidmət vasitəsilə həyata keçirilir. Ərizələr poçt vasitəsilə də göndərilə bilər.

Müsabiqədə iştirak etmək arzusunda olan hüquqşünaslar 2018-ci ilin dekabr ayının 20-dən etibarən nazirliyin internet səhifəsindən (www.exidmet.justice.gov.az) və ya "Elektron hökumət" portalından (www.e-gov.az) qeyd olunan elektron xidmət vasitəsilə ərizə formasını doldurmalı və təsdiq etməlidirlər. Qeydiyyata alınmış bütün namizədlərin fərdi elektron kabinetləri yaranır və onlar müraciətlərinin qəbulu ilə bağlı məlumatlandırılır. Namizəd müsabiqənin gedişi və nəticələri barədə məlumatları kütləvi informasiya vasitələri ilə yanaşı, elektron kabinetindən də əldə edir.

Test imtahanından uğur qazanmış namizədlərin digər zəruri sənədlərinin toplanması və yoxlanılması bu mərhələdən sonra həyata keçiriləcək və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

İmtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Nazirliyin internet səhifəsində "Qulluğa qəbul" bölməsində və namizədlərin elektron kabinetlərində yerləşdiriləcək, habelə bu sənədlər yerli ədliyyə qurumları-

na müraciət edənlərə təqdim olunacaqdır.

Bildirilir ki, hazırkı müsabiqədə iştirak edəcək hüquqşünaslar üçün də test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə Nazirliyin Ədliyyə Akademiyasında ödənişsiz hazırlıq kursları təşkil olunacaqdır.

Test imtahanının vaxtı və yeri, habelə hazırlıq kursunun keçirilməsi barədə əlavə məlumat veriləcəkdir.

Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, 537-05-90 nömrəli telefonlar vasitəsilə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı və müsahibə keçirilib

**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, bəzi bölgələrdə yaradılması nəzərdə tutulmuş yeni "ASAN xidmət" mərkəzlərində təşkil olunacaq notariat kontorlarında, habelə hazırda Şirvan şəhəri, Beyləqan, Xaçmaz, Lənkəran, Salyan, Yevlax rayonlarında vakant olan notarius vəzifələri üzrə elan olunmuş müsabiqədə iştirakla bağlı müraciət etmiş şəxslərin sənədlərinin qəbulu başa çatdırılaraq, namizədlərlə noyabr ayının 17-də test imtahanı keçirilib.**

Dövlət İmtahan Mərkəzi ilə birlikdə aşkarlıq şəraitində notarius vəzifələri üzrə keçirilmiş imtahanı vətəndaş cəmiyyətinin nümayəndələri izləyib, həmçinin tədbirin gedişi internet vasitəsilə "on-line" rejimində birbaşa yayımlanıb.

"Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.



Yekun nəticələrə görə imtahanda 24 nəfər müvəffəqiyyət qazanaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb. Namizədlər suallara verdikləri cavabların nəticələri ilə test imtahanının sonunda istifadələrində olan monitor vasitəsilə tanış olub və bu barədə bildirişi yerindəcə əldə ediblər.

***

Test imtahanında uğur qazanmış namizədlərlə müsahibənin keçirilməsinə dekabr ayının 18-dən etibarən başlanılıb və müsahibə nazirliyin Qeydiyyat və notariat baş idarəsinin inzibati binasında fərdi qaydada keçirilib.

Xatırladırıq ki, müsahibənin nəticələrinə əsasən elan olunmuş hər bir notarius vakansiyası üzrə ən yüksək bal toplayacaq namizədlər Ədliyyə Akademiyasında icbari təlimə cəlb ediləcək və təlimin yekunları üzrə qiymətləndirmədən müvəffəqiyyətlə keçənlərə notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin verilməsi məsələsinə baxılacaqdır.

# Ədliyyə Akademiyasının beynəlxalq əlaqələri genişlənir

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərlə beynəlxalq hüquq əməkdaşlığının dərinləşdirilməsinə böyük əhəmiyyət verilir, o cümlədən Ədliyyə Akademiyasının Avropanın tanınmış institutları ilə təcrübə mübadiləsi sahəsində əlaqələri genişlənir.**

Dekabrın 10-13-də Ukrayna Hakimlərinin Milli Məktəbinin prorektoru Nataliya Şuklinanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Səfər zamanı Ədliyyə Akademiyasında nümayəndə heyəti ilə görüş keçirilib, qonaqlar akademiyanın fəaliyyəti ilə tanış olublar. Qarşılıqlı fəaliyyəti daha da dərinləşdirmək məqsədilə "Ədliyyə Akademiyası ilə Ukrayna Hakimlərinin Milli Məktəbi arasında əməkdaşlıq" haqqında Memorandum imzalanıb. Memorandum implementasiyası çərçivəsində hakimlərin, hakimliyə namizədlərin və məhkəmə aparatı işçilərinin hazırlanmasına dəstək və tərəflərin ən yüksək standartlara uyğun olaraq hakim korpusu hazırlamaq potensialını artırmaq sahəsində əməkdaşlıq nəzərdə tutulur.

Akademiyada həmçinin Məktəbin prorektoru Nataliya Şuklinanın Azərbaycan Respublikası hakimlərinə "Ukrayna Konstitusiyasında dəyişikliklər" mövzusunda təqdimatı olub.


Ədliyyə Nazirliyində görüş


Ədliyyə Akademiyası və Ukrayna Hakimlərinin Milli Məktəbi arasında əməkdaşlığa dair Memorandumun imzalanması


Məhkəmə-Hüquq Şurasında görüş


Ədliyyə Akademiyasında hakimlər üçün təqdimat

Səfər çərçivəsində ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşən qonaqlar ölkəmizə səfərlərindən məmnunluqlarını bildirib, Azərbaycan və Ukrayna arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin müxtəlif, o cümlədən hüquqi sahədə inkişafını vurğulayıblar. İki ölkənin təhsil qurumları arasında imzalanmış Memorandumun uğurla icra olunacağına və qarşılıqlı fəaliyyətə əlavə töhfələr verəcəyinə əminlik ifadə olunub.

Ukrayna nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub. Həmçinin Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, Ali, Bakı apellyasiya və Yasamal rayon məhkəmələri, elektron məhkəmə sistemi ilə tanış olunub, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Ramin Qurbanov qonaqlara e-məhkəmə informasiya sistemi və məhkəmə fəaliyyətində müasir texnologiyaların tətbiqi barədə məlumat verib, təqdimat keçirilib.

Səfər zamanı nümayəndə heyəti Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə də tanış olub.

# Ədliyyə Nazirliyinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib

Noyabrın 28-29-da Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin təşkilatçılığı ilə "Rusiya Federasiyasında və xarici ölkələrdə cəza-icra sisteminin inkişafının nəzəri və praktiki problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Ryazan Hüquq və İdarəetmə Akademiyasında keçirilən tədbirdə Cəzaların İcrası Federal Xidmətinin rəhbərliyi, eləcə də müxtəlif ölkələrin penitensiar sistemləri, təhsil müəssisələri və ictimai-siyasi təşkilatlarının çoxsaylı nümayəndələri iştirak ediblər. Ölkəmiz Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Probasiya xidmətinin rəis müavini Musa Hümbətov, Penitensiar xidmətinin rəis müavini Orxan Qasımov və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqovdan ibarət nümayəndə heyəti ilə təmsil olunub.

Konfransda penitensiar sahədə beynəlxalq əməkdaşlığın və dialoqun genişləndirilməsi, habelə penitensiar sistemlərin inkişaf perspektivləri müzakirə olunub.

Ölkəmizin nümayəndə heyətinin üzvləri müzakirələrdə fəal iştirak edərək mövzular üzrə çıxışlar edib, Azərbaycanın penitensiar sahədəki nailiyyətləri, ölkə rəhbərliyinin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğısı, son illər cəza-icra qanunvericiliyinin



Ryazan Hüquq və İdarəetmə Akademiyasının binasında Rusiya-Azərbaycan dostluğu guşəsinin açılışı

təkmilləşdirilməsi, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 10 fevral 2017-ci il tarixli Sərəncamı ilə bağlı görülmüş işlər, o cümlədən ölkəmizdə Probasiya xidmətinin təşkili, azadlığın məhdudlaşdırılması yeni cəza növünün icrası, bu zaman elektron nəzarət vasitələrindən istifadə edilməsi barədə ətraflı məlumat verilib.

Həmçinin konfrans çərçivəsində keçirilən dəyirmi masada Azərbaycanda publik hüquqi şəxslərin fəaliyyətinin hüquqi tənzimlənməsi məsələləri ilə bağlı çıxış edilib.

Tədbirdə 100 illiyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixi və inkişafı yolundan bəhs olunub, yubiley münasibətilə Azərbaycan ədliyyə nazirinin əmrinə əsasən ədliyyə orqanları ilə səmərəli əməkdaşlığa görə təltif edilmiş Cəzaların İcrası Federal Xidməti Akademiyasının rəisi A.Krımova "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalı, Akademiyanın bir sıra müəllimlərinə isə fəxri fərmanlar təqdim edilib.

Səfər çərçivəsində nümayəndə heyətimiz tərəfindən A.Krımovla görüş keçirilərək əməkdaşlığın perspektivləri, Akademiyada təhsil alan azərbaycanlı müdavimlərlə bağlı məsələlər müzakirə edilib.

Akademiyanın rəisi Azərbaycan ədliyyəsinin 100 illiyi və ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənova ədliyyə general-leytenantı ali xüsusi rütbəsinin verilməsi münasibətilə hazırlanmış təbrik lövhəsini nümayəndə heyətimizə təqdim edib.

Daha sonra Akademiyanın inzibati binasında Rusiya-Azərbaycan dostluğu guşəsinin təntənəli açılış mərasimi keçirilib.

Yeni yaradılmış guşədə

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü quraşdırılıb. Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotostendlər, digər tarixi material və sənədlər Akademiyanın müəllimləri və müdavimləri tərəfindən böyük maraqla qarşılanıb.

Eyni zamanda Akademiyada təhsil alan azərbaycanlı müdavimlərlə görüşülərək, onların təhsil və məişət şəraiti ilə yaxından maraqlanılıb. Təhsildə fərqlənən müdavimlərə Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə mükafatlar verilib.

# Ədliyyə Akademiyasının məlumatları



## Hakimlər və məhkəmə aparatı işçiləri üçün təlimlər

Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə edilir, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri təşkil olunur.

Cari ilin noyabr-dekabr aylarında Akademiya tərəfindən hakimlər üçün bir sıra təlimlər, ixtisasartırma kursları keçirilib. "Şəhərsalma və Tikinti Məcəlləsinin tətbiqi məsələləri" mövzusunda ixtisasartırma kursunda apellyasiya və birinci instansiya məhkəmələrinin 26 hakimi iştirak edib. Kursda Şəhərsalma və Tikinti Məcəlləsinin tətbiqi zamanı yol verilən nöqsanlar, tikinti qaydaları hüququna ümumi giriş, bu Məcəllənin qüvvəyə minməsi ilə əlaqədar yaranan məhkəmə mübahisələri, tikinti obyektlərinin sökülməsi əsasları və bu barədə qərar qəbul etmək səlahiyyəti olan orqanlar, tikintiyə icazə verilməsi sahəsində yaranan mübahisələrə baxılması xüsusiyyətləri kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsində keçirilmiş növbəti ixtisasartırma kursu "Məhkəmələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiq məsələləri" mövzusuna həsr olunub. 13 hakimin cəlb olunduğu kursda müasir idarəetmənin sosial-hüquqi aspektləri, məhkəmələrdə müasir İKT-lərin tətbiqinin əsasları, "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasının ədalət mühakiməsinin həyata keçirilməsində rolu, elektron hökumət mövzuları tədris olunub.

Ədliyyə Akademiyası və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə Lənkəran rayonunda "Cinayət təqibini həyata keçirən orqanlar üçün insan alverinə qarşı mübarizə" mövzusunda üç günlük kaskad təlim təşkil olunub.

16 nəfər hakim, vəkil və prokurorların iştirak etdiyi təlimdə Makedoniya Ədliyyə





Akademiyasının rektoru Aneta Arnaudovskanın və ölkəmizin Daxili İşlər Nazirliyi İnsan Alveri ilə Mübarizə Baş İdarəsinin məsul nümayəndəsinin, Sumqayıt Apellyasiya, Lənkəran və Şəki Ağır Cinayətlər Məhkəməsi sədrlərinin, Vəkillər Kollegiyası üzvünün mühazirələri dinlənilib.

Təlim iştirakçılarına insan alveri və digər cinayətlər arasında fərq yaradan milli aspektlər, bu fərqləri aşılayan beynəlxalq hüquqi çərçivə və əsas hüquqi anlayışlar, onların yerli təcrübədə tətbiqində yaranan problemlər, cinayətdə qurbanlar və cinayət iştirakçıları arasındakı fərqlər, miqrantlar və insan alveri qurbanları, uşaq alverinin xüsusiyyətləri, reabilitasiya və müdafiə prosessual və qeyri-prosessual tədbirlər, dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatların rolu, bu sahədə Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsi və s. barədə ətraflı məlumatlar verilib. Yekunda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyası ilə birgə Ədliyyə Akademiyasında təşkil olunmuş növbəti təlim isə "Daşınar əmlakın yüklülüyü" mövzusuna həsr olunub.

Tədbirin açılışında Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov, Beynəlxalq Maliyyə Korporasiyasının, İsveçrə Əməkdaşlıq Təşkilatının və Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatasının məsul şəxsləri çıxış edib, təlimin əhəmiyyətindən danışıblar.

Apellyasiya və birinci instansiya məhkəmələri hakimlərinin iştirak etdiyi təlimdə bildirilib ki, 2017-ci ilin may ayında qəbul olunmuş "Daşınar əmlakın yüklülüyü" haqqında Qanuna əsasən 2018-ci ilin martından daşınar əmlakın yüklülüyünün dövlət reyestri fəaliyyətə başlayıb. Təlimin əsas məqsədi hakimlər tərəfindən yeni qanunun tətbiqinin və reyestrə daxil edilən məlumatlardan istifadənin asanlaşdırılmasından ibarətdir.

Təlimdə bu sahədə qanunvericiliyin islahatı, kiçik və orta sahibkarların maliyyəyə çıxışının asanlaşdırılması ilə bağlı qanunvericilikdə bir sıra yeniliklərin tətbiq edilməsi (məsələn, gələcək əmlakın girov qoyulması), tutmanın yönəldilməsi haqqında müddəaların hakimlər tərəfindən düzgün tətbiqi məsələləri araşdırılıb, xarici və yerli ekspertlərin, Dünya Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Kanadadan və Azərbaycandan olan mütəxəssislərin təqdimatları dinlənilib.

Həmçinin, daşınar əmlakın yüklülüyünün dövlət reyestri, qüvvədə olan qanunvericilik aktlarına dəyişikliklər, bu sahədə Kanada təcrübəsi, müqayisəli təhlillər əsasında daşınar əmlakın yüklülüyünə dair digər beynəlxalq hüquqi məsələlər, xüsusilə UNCITRAL Model Qanunu kimi mövzular barədə geniş müzakirələr aparılıb.

Ədliyyə Akademiyası tərəfindən məhkəmə aparatı işçilərinin ixtisaslarının artırılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Şəkidə Avropa Şurası və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi həyata və ailə həyatına hörmət hüququ)" mövzusunda təlim keçirilib.

Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan rayon məhkəmələrindən 25 nəfər məhkəmə aparatı işçisinin cəlb olunduğu təlimdə "8-ci maddənin əhatə dairəsi", "Maddənin aspektləri: Şəxsi həyat", "Ailə həyatı, Mənzilə hörmət hüququ və Yazışma sirrinin toxunulmazlığı", "8-ci maddənin tətbiqi ilə bağlı yoxlamanın ikinci mərhələsi", "8-ci maddə üzrə geri çəkilmə müddəası: dövlətin mülahizəsi sərbəstliyi; pozitiv və neqativ öhdəliklər" barədə mövzular tədris olunub.

## Ədliyyə işçiləri üçün təlimlər

Ədliyyə Akademiyasında nazirliyin Penitensiar xidmətinin və Məhkəmə Ekspertizası mərkəzinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlimlər keçirilib.

Ümumilikdə 60-dək dinləyicinin iştirak etdiyi təlimlərdə "Ədliyyə orqanları işçilərinin etik davranış qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət", "Korrupsiyaya qarşı mübarizə və antikorrupsiya mədəniyyəti", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması" mövzularında mühazirələr tədris olunub.

Penitensiar Xidmət əməkdaşları üçün təşkil olunmuş növbəti təlim isə "Ünsiyyət psixologiyası" mövzusuna həsr olunub. 31 dinləyicinin qatıldığı təlimdə "Şəxsiyyətlərarası qarşılıqlı münasibətlər. Konfliktlər və onların həlli metodları", "Azərbaycan ədliyyəsi müstəqillik dövründə", "Vətəndaşların ədliyyə işçiləri tərəfindən qəbulu zamanı yaranan problemlər və ünsiyyət psixologiyası" mövzularında mühazirələr oxunub.

Eyni zamanda, Avropa İttifaqı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə TAİEX proqramı çərçivəsində probasiya sahəsində Avropanın qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə təlimlərin keçirilməsi üçün dekabrın 5-7-də Akademiyada nazirliyin Probasiya xidmətinin icra məmurları ilə ekspert görüşü keçirilib.



Görüşdə xarici ekspert Hollandiya Probasiya Xidmətinin aktiv probasiya üzrə icra məmuru və beynəlxalq təlimçi Frans Clobus, yerli ekspert Ədliyyə Nazirliyi Probasiya xidmətinin rəis müavini Musa Hümbətov iştirak ediblər.

Ümumilikdə 21 nəfər probasiya üzrə icra məmurunun və Ədliyyə Akademiyası əməkdaşlarının iştirak etdiyi görüş aktiv təlim formasında keçirilib, ekspertlərin aktual mövzulara dair fikir mübadiləsi aparılıb, probasiya məmurlarının yeni təcrübi imkanları qiymətləndirilib.

Görüşdə beynəlxalq və yerli probasiya, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların beynəlxalq və milli səviyyədə icrası qaydası və şərtləri, məhkumlarla müsahibə aparılması texnikası və elektron nəzarət vasitələrinin tətbiqi kimi mövzulara toxunulub.

Həmçinin xarici ekspert Frans Clobusun Akademiyanın əməkdaşları ilə görüşü keçirilib, Azərbaycanda Probasiya sahəsində təlimlərin keçirilməsi ilə bağlı ehtiyaclar müzakirə edilib, əməkdaşlığın perspektivlərinə və təlimçilərin təliminə dair təkliflər irəli sürülüb.

Tədris tədbirləri çərçivəsində Akademiyada dövlət sirrinin mühafizəsi və informasiya təhlükəsizliyinin təmin edilməsi məsələlərinə həsr olunmuş seminar-müşavirə keçirilib.

Seminarda Prezident yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın, Dövlət Təhlükəsizliyi Xidmətinin və Ədliyyə Nazirliyinin dövlət sirrinin mühafizəsi üzrə bölmələrinin məsul əməkdaşları iştirak ediblər. Tədbirdə Ədliyyə Nazirliyində dövlət sirrinin mühafizəsi və informasiya təhlükəsizliyinin təmin edilməsi, bu sahədə gələcək fəaliyyət istiqamətləri müzakirə olunub, "Dövlət sirri haqqında" Qanununun tələblərinə dönmədən əməl olunmasının, dövlət sirrinin mühafizəsi bölmələrinin fəaliyyətinin bu sahəni tənzimləyən normativ hüquqi aktlara uyğun təşkil olunmasının önəmi qeyd edilib, belə təlimlərin davam etdirilməsi vurğulanıb.

### Bələdiyyə nümayəndələri üçün tədris kursları

Bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılmasında bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi və onlara metodiki köməkliyin göstərilməsinin əhəmiyyəti nəzərə alınaraq Ədliyyə Akademiyası tərəfindən regional ədliyyə idarələri ilə birgə silsilə tədris tədbirləri təşkil olunur.

Bakı və Abşeron ərazisində fəaliyyət göstərən 30-a yaxın bələdiyyə nümayəndələri üçün Akademiyada hüquqi maarifləndirmə ilə bağlı tədris kursları keçirilib. Kurslarda inzibati aktın forması, ümumi tələblər və icra edilmə qaydası, bələdiyyələrin maliyyə fəaliyyətinin hüquqi əsasları, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, qiymətləndirilməsi, bələdiyyə qulluqçularının etik davranış qaydaları və Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı mövzularında mühazirələr oxunub.

# Strateji Yol Xəritəsinin icrası üzrə tədbirlər davam etdirilir

**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin 9.3.1-ci yarımbəndindən irəli gələn vəzifələrin icrası ilə bağlı yaradılmış İşçi qrupunun dekabrın 21-də Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzində geniş tərkibdə iclası keçirilib.**



İclasda İşçi qrupunun üzvləri ilə yanaşı, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, regional ədliyyə idarələrinin, bələdiyyələrin milli assosiasiyalarının nümayəndələri, habelə pilot bələdiyyələrin sədrləri və ekspertlər iştirak ediblər.

Tədbirdə kəndin inkişaf modelinin yaradılması ilə bağlı verilmiş təkliflər, pilot bələdiyyələrin ərazilərinə investisiyaların cəlb edilməsi, başqa maliyyə mənbələrinin, o cümlədən kreditlər və subvensiyaların ayrılması imkanları, qrantların alınması, pilot bələdiyyələrdə vergi və ödənişlərin yığımının yaxşılaşdırılması, şəffaflığın artırılması məsələləri müzakirə edilib.

Həmçinin, Avropa İttifaqının maliyyə dəstəyi ilə İqtisadiyyat Nazirliyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə tərəfdaşlığı ilə həyata keçirilən "Yerli inkişaf planları"nın hazırlanması layihəsi, habelə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən təqdim olunmuş Kənd Fəaliyyət Planları barədə geniş məlumat verilib, bu layihələrdən və formalaşmış təcrübədən kəndin inkişaf modelinin yaradılmasında istifadə olunması məqsədəuyğun sayılıb.

İşçi qrupunun qəbul etdiyi qərarda kəndin inkişaf modelinin yaradılması ilə bağlı həyata keçirilməli olan tədbirlər müəyyən edilib, habelə İşçi qrupunun 2019-cu il üçün İş planı təsdiq olunub.

İclasda Bələdiyyələrlə iş mərkəzinin hazırladığı və GİZ-nin maliyyə dəstəyi ilə çap edilmiş "Sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı ilə bağlı qanunvericiliyə dair sənədlər toplusu" kitabının təqdimatı keçirilib və iştirakçılara paylanılıb.

# İctimai sanksiyaların və tədbirlərin həyata keçirilməsi: müsbət təcrübələr və yeni yanaşmalar

**Kamil Mustafayev**
**Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin baş məsləhətçisi**

**Avropa məkanında ictimai sanksiyaların və tədbirlərin həyata keçirilməsi vəziyyətinin müzakirəsi məqsədilə Avropa Şurası (AŞ) tərəfindən noyabr ayında Fransanın Strasburq şəhərində çoxtərəfli görüş təşkil edilmişdir.**

AŞ-ya üzv olan 30-dək ölkənin hüquq-mühafizə orqanlarının məsul əməkdaşlarının qatıldığı tədbirdə ictimai sanksiyaların və tədbirlərin səmərəli həyata keçirilməsi üzrə müsbət təcrübələr və Avropa standartlarına uyğun bu sahədə yeni yanaşmaların müəyyən olunması ətrafında müzakirələr aparılmışdır.

İştirakçısı olduğum tədbirin açılış hissəsində AŞ-nın İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun Cinayətkarlığa qarşı Departamentinin müdiri İvan Koedjikov, müvafiq sessiyalarında isə İrlandiya Probasiya Xidmətinin rəhbəri, AŞ-nın Penoloji Əməkdaşlıq Şurasının sabiq sədri Viviyan Geiran, Estoniya Ədliyyə Nazirliyinin Həbsxana Departamentinin Reabilitasiya Şöbəsinin sabiq müdiri, Ədliyyə Akademiyasının mühazirəçisi Maret Miljan və Buxarest Universitetinin (Rumıniya) professoru İoan Durnesku tərəfindən müvafiq təqdimatlar edilmişdir.

Bildirilmişdir ki, qanun pozucularını cəmiyyətdə saxlayan, vəzifə və öhdəliklər qoymaqla azadlıqlarının məhdudlaşdırılmasını nəzərdə tutan sanksiyalar və tədbirlər cinayətkarlıqla mübarizə, onun vurduğu zərərin azaldılması və ədalətin gücləndirilməsi işində mühüm vasitələrdir. Bu sanksiya və tədbirlər azadlıqdan məhrum etmə cəzasına müraciət olunmadan qanun pozucuları üzərində effektiv nəzarəti və onlara dəstəyin göstərilməsini, həmin şəxslərin həbsdə saxlanılmanın mənfi təsirinin altına düşməməsini təmin edir. İctimai sanksiyaların və tədbirlərin səmərəli tətbiqi, eləcə də azadlıqdan məhrum etmə cəzasından ən zəruri hallarda istifadə olunması qanun pozucularının sosial reinteqrasiyasını dəstəkləyir.

Tədbirdə 22 mart 2017-ci il tarixli İctimai sanksiyalar və tədbirlər haqqında Avropa Qaydalarına dair AŞ-nın Nazirlər Komitəsinin üzv ölkələrə Tövsiyəsinə istinad olunaraq həmin sənədin ictimai sanksiyalar və tədbirlərin milli hakimiyyət orqanları tərəfindən düzgün və effektiv istifadəsi üçün standartların müəyyən etdiyi vurğulanmışdır. Qeyd olunmuşdur ki, ictimai sanksiyalar və tədbirlərin xarakteri və müddəti törədilmiş hüquq pozuntusunun ağırlıq dərəcəsinə uyğun olmalı, cinayətkarların fərdi vəziyyətini nəzərə almalıdır. Bununla əlaqədar fərdi risklərin və ehtiyacların, həmçinin bu ehtiyacların qarşılanması üçün tələb olunan müdaxilələrin qiymətləndirilməsinin aparılması mühüm əhəmiyyət kəsb edir.

Görüş çərçivəsində Avropa

məkanında fəaliyyət göstərən probasiya qurumlarının işi müzakirə edilmiş, bu xidmətlərin əsas məqsədinin qanun pozucularla müsbət münasibətlər yaratmaq yolu ilə təkrar cinayətlərin törədilməsi hallarının azaldılmasından ibarət olduğu və beləliklə probasiya institutunun ictimai təhlükəsizliyə töhfə verdiyi bildirilmişdir.

Avropa ölkələrində probasiya qurumları bir qayda olaraq Ədliyyə Nazirliyinin tərkibində müstəqil idarə formasında fəaliyyət göstərir (Skandinaviya yarımadası ölkələrində, İngiltərə, Uels, İspaniya, Portuqaliya, Fransa, Bolqarıstan və Xorvatiyada həbsxana xidmətləri ilə vahid struktur təşkil edir, İspaniyada Daxili İşlər Nazirliyinin, Lüksemburqda isə Prokurorluğun nəzdindədir, Niderland və Avstriyada özəl təşkilatlardır).

Diqqətə çatdırılmışdır ki, Avropa dövlətlərinin probasiya qurumlarının funksiyalarına bir qayda olaraq ictimai işlər, ev dustaqlığı cəzalarının icrasının təşkili, şərti məhkum edilmiş və cəzadan vaxtından əvvəl azad olunmuş şəxslər üzərində nəzarətin həyata keçirilməsi, elektron monitorinqin və mediasiyanın tətbiqi, məhkəməyədək məruzələrin hazırlanması, probasiya nəzarəti prosesində riskin qiymətləndirilməsinin aparılması, qanun pozucularının reabilitasiyası sahəsində işlərin görülməsi daxildir.

Probasiya nəzarəti çərçivəsində probasiya qurumlarının şəxslərin azadlığa buraxılmasına hazırlanması və cəmiyyətə reinteqrasiyası üçün həbsxana xidmətləri, qanun pozucuları, onların ailə üzvləri və cəmiyyətlə sıx işləməsinin vacibliyi vurğulanmışdır.

Tədbirdə ictimai sanksiyalar və tədbirlərin tərkib hissəsini təşkil edən ictimai işlər cəzası ətrafında fikir mübadiləsi aparılmış, Buxarest Universitetinin professoru İ.Durneskunun təqdimatında ötən əsrin 70-ci illərin sonundan tətbiqinə başlanılmış həmin işlərin mahiyyətini cəmiyyətin xeyrinə haqqı ödənilməyən işlərin aparılmasının təşkil etdiyi, belə işlərin gəlir güdməyən müxtəlif ictimai təşkilatlarda, fondlarda icra olunduğu, orta hesabla 250-300 saatadək müddətdə təyin edilməsinin məqbul sayıldığı göstərilmişdir (ictimai işlər Latviyada 200, İrlandiya və Niderlanda 240, Norveçdə 420, Yunanıstanda 500, Sloveniyada 1500 saatadək, Azərbaycanda isə inzibati tənbeh tədbiri qismində 240, cəza qismində 480 saatadək müddətə müəyyən edilir).

İctimai işlərin yerinə yetirilməsinə nəzarət bir qayda olaraq probasiya qurumlarının əməkdaşlarının başçəkmələri ilə həyata keçirilir. Tədbirdə iştirak etmiş Niderlandın Probasiya xidmətinin nümayəndəsinin verdiyi məlumata görə, 2019-cu ildən başlayaraq həmin ölkədə müvafiq iş yerlərində ictimai işləri yerinə yetirməli olan şəxsin olmasını müəyyən etməyə imkan verən barmaq taraması (skan edilməsi), habelə iş saatlarının rəqəmsal qeydiyyat sisteminin tətbiqi nəzərdə tutulmuşdur.

Eyni zamanda tədbir iştirakçılarının nəzərinə 3 oktyabr 2018-ci il tarixdə cinayət işlərində bərpaedici ədliyyə ilə əlaqədar AŞ-nın Nazirlər Komitəsi tərəfindən üzv ölkələrə Tövsiyənin qəbul edildiyi çatdırılmışdır. Bildirilmişdir ki, bərpaedici ədliyyə cinayətdən zərər çəkənlərə və həmin zərərə görə cavabdeh olanlara razılıqları olduqları hallarda, peşəkar və qərəzsiz üçüncü tərəfin (vasitəçi) yardımı ilə törədilmiş hüquq pozuntusundan irəli gələn məsələlərin həllində fəal iştiraka imkan verən prosesdir.

Bərpaedici ədliyyənin əsas prinsiplərini tərəflərin cinayətdən irəli gələn məsələlərin həllində iştirakının və cinayətin fərdlərə, münasibətlərə və bütövlükdə cəmiyyətə vurduğu zərərin əvəzinin ödənilməsinin təmin olunması təşkil edir. Digər prinsiplərə könüllülük, hör-

mətə söykənən dialoq, tərəflərin ehtiyaclarına və maraqlarına bərabər münasibət, ədalətlilik, konsensusa əsaslanan razılaşma, zərərin əvəzinin ödənilməsi, qarşılıqlı anlaşmanın əldə olunması, dominantlıqdan çəkinmə daxildir.

Bir qayda olaraq cinayət qurbanı və qanun pozucusu arasında birbaşa və ya dolayı dialoq formasında həyata keçirilən bu mexanizmi cinayət prosesinin istənilən mərhələsində tətbiq etmək mümkündür. Bərpaedici ədliyyə yalnız tərəflərin azad şəkildə razılığı hallarında, onların əvvəlcədən bu prosesin xarakteri və mümkün nəticələri, o cümlədən gələcək cinayət prosesinə hər hansı təsiri barədə məlumatlandırılması şərti ilə baş tuta bilər. Bərpaedici ədliyyənin subyektləri yetkinlik yaşına çatmayanlar olduqda (qurban və ya cinayətkar), onların valideynləri, qəyyum və himayədarları uşaqların hüquq və mənafelərinin təmin olunması məqsədilə istənilən prosesdə iştirak etmək imkanına malik olmalıdır.

Bərpaedici prinsiplər və yanaşmalardan həmçinin cinayət prosesindən kənarda, məsələn vətəndaşlar və polis əməkdaşları, məhbuslar və həbsxana personalı, probasiya nəzarətində olan şəxslər və probasiya məmurları arasında münaqişə hallarında da istifadə oluna bilər.

Müzakirələr zamanı Azərbaycanda azadlıqdan məhrum etmə cəzası ilə əlaqədar olmayan alternativ sanksiyaların geniş tətbiqinin təmin edilməsi sahəsində həyata keçirilən kompleks qanunverici və institusional tədbirlər barədə məlumat verilmişdir.

Qeyd olunmalıdır ki, ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla aparılan hüquq islahatları çərçivəsində cəza siyasətinin liberallaşdırılması məsələləri diqqət mərkəzində saxlanılır. Dövlət başçısının 2017-ci il fevralın 10-da imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" proqram xarakterli Sərəncamı hüquq sistemində islahatların daha intensiv davamına təkan vermişdir.

Hüquq mühafizə orqanları üçün "yol xəritəsi" rolunu daşıyan Sərəncama əsasən ötən dövrdə cinayət ədliyyəsi qanunvericiliyinə cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan prosessual məcburiyyət tədbirlərinin və cəzaların, o cümlədən ictimai işlərin geniş tətbiqinə imkan verən mühüm dəyişikliklər edilmiş, alternativ cəzaların icrasına effektiv nəzarətin və bu sahədə idarəetmənin daha səmərəli təşkil edilməsi məqsədilə Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyəti təmin olunmuş, elektron nəzarət vasitələrindən səmərəli istifadəsinə başlanılmışdır.

Hazırda probasiya sahəsində normativ tənzimlənmənin təkmilləşdirilməsi məqsədilə ədliyyə nazirinin 15 may 2018-ci il tarixli Sərəncamı ilə nazirliyin müvafiq qurumlarının əməkdaşlarından ibarət yaradılmış İşçi qrup tərəfindən qabaqcıl təcrübə nəzərə alınmaqla, "Probasiya haqqında" Qanun layihəsinin və digər aidiyyət sənədlərin hazırlanması işi aparılır.

Eyni zamanda dövlət başçısının 2016-cı ilin dekabrında təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun formalaşdırılması üzrə də ardıcıl tədbirlər həyata keçirilir.

### "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*
*N 819*

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

## Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün DÖVLƏT PROQRAMI

### 1. Giriş

Qanunun aliliyi, insan hüquq və azadlıqlarının etibarlı təmin olunması, hüquq institutlarının möhkəmləndirilməsi, əhaliyə yüksək keyfiyyətli hüquqi xidmətlər göstərilməsi, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması Azərbaycan dövlətinin hüquq siyasətinin prioritetlərindəndir.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 132 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" ölkəmizdə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, hüquq sisteminin müasirləşdirilməsi, ədliyyə orqanlarının və məhkəmələrin işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi, regionlarda hüquq infrastrukturunun genişləndirilməsi, yeni nəsil hüquqşünasların və ədliyyə orqanları işçilərinin formalaşdırılması üzrə həyata keçirilən siyasətin davamı olmuş və bu sahədə nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ədliyyə sahəsində islahatların davamlılığının təmin olunmasını şərtləndirir. Bu məqsədlərə xidmət edən "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" (bun-

dan sonra - Dövlət Proqramı) həyata keçirilməli olan zəruri tədbirləri müəyyən edir.

**2. Dövlət Proqramının məqsədi**

Dövlət Proqramının məqsədi ədliyyə sahəsində həyata keçirilən islahatların davam etdirilməsini, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin daha da təkmilləşdirilməsini təmin etməkdən ibarətdir.

**3. Dövlət Proqramının əsas istiqamətləri**

3.0. Dövlət Proqramında Azərbaycan ədliyyəsinin 2019-2023-cü illərdə aşağıdakı əsas istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur:

3.0.1. ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi;

3.0.2. ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində insan hüquq və azadlıqlarının, şəffaflıq prinsiplərinin təmin olunması;

3.0.3. beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

3.0.4. vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın gücləndirilməsi;

3.0.5. ədliyyə orqanlarının və məhkəmələrin infrastrukturunun və maddi-texniki bazasının yaxşılaşdırılması, həmin qurumların vətəndaşlar üçün əlçatanlığının təmin edilməsi;

3.0.6. ədliyyə sahəsində vətəndaş məmnunluğunun yüksəldilməsi;

3.0.7. ədliyyə orqanlarının institusional və kadr potensialının gücləndirilməsi;

3.0.8. ədliyyə sistemində İKT-nin tətbiqinin genişləndirilməsi, rəqəmsal hökumətə keçidin təmin edilməsi;

3.0.9. ədliyyə sahəsində müasir üsullar tətbiq olunmaqla, tədrisin və hüquqi maarifləndirmənin gücləndirilməsi;

3.0.10. cəzaların icrası sisteminin təkmilləşdirilməsi, islah işinin səmərəliliyinin artırılması;

3.0.11. məhkəmə ekspertizası fəaliyyətində müasir elmi və texniki nailiyyətlərin tətbiqinin genişləndirilməsi;

3.0.12. məhkəmə fəaliyyətinin müasir tələblər səviyyəsində həyata keçirilməsinin təmin olunması;

3.0.13. ədliyyə orqanları işçilərinin və hakimlərin sosial müdafiəsinin yaxşılaşdırılması;

3.0.14. yerli idarəetmənin inkişafında ədliyyə orqanlarının iştirakının səmərəliliyinin artırılması.

**4. Gözlənilən nəticələr**

4.0. Dövlət Proqramının yerinə yetirilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verəcəkdir:

4.0.1. ədliyyə sahəsinin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi;

4.0.2. ölkəmizin tərəfdar çıxdığı aidiyyəti beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, qanunvericiliyin beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılması;

4.0.3. ədliyyə orqanlarında və məhkəmələrdə müasir İKT-nin və elektron sistemlərin tətbiqinin genişləndirilməsi;

4.0.4. ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması və həmin qurumların vətəndaşlar üçün əlçatanlığına nail olunması;

4.0.5. ədliyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir infrastrukturun yaradılması;

4.0.6. vətəndaşların (xüsusən bölgələrdə yaşayanların) hüquqi biliklərinin artırılması;

4.0.7. penitensiar və tibb sahələrində fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi;

4.0.8. məhkəmə ekspertizası tədqiqatlarında müasir metod və qabaqcıl təcrübənin tətbiqi;

4.0.9. ədliyyə sistemində kadr potensialının, ədliyyə orqanları işçilərinin və hakimlərin sosial müdafiəsi sisteminin gücləndirilməsi.

**5. Dövlət Proqramının maliyyə təminatı**

5.0. Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

5.0.1. Azərbaycan Respublikasının dövlət büdcəsi;

5.0.2. dövlət investisiya xərcləri;

5.0.3. beynəlxalq təşkilatların maliyyə vəsaiti;

5.0.4 qanunla qadağan olunmayan digər mənbələr.

**6. Dövlət Proqramının həyata keçirilməsi üzrə**
**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | İcraçı orqan | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **6.1. Qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi** | | | |
| 6.1.1. | Ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən normativ hüquqi aktların qabaqcıl təcrübəyə, beynəlxalq norma və prinsiplərə uyğun təkmilləşdirilməsi üzrə təkliflərin təqdim olunması | Nazirlər Kabineti, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmənin təklifləri nəzərə alınmaqla | 2019–2023 |
| 6.1.2. | Ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı ödənilən rüsumların və qanunla nəzərdə tutulan digər ödənişlərin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsinin mümkünlüyü təhlil edilərək təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019–2023 |
| 6.1.3. | Ədliyyə sisteminin inkişafında və beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılmasında beynəlxalq əməkdaşlığın əhəmiyyəti nəzərə alınaraq, xarici dövlətlərin müvafiq qurumları ilə ikitərəfli müqavilələr bağlanması üzrə tədbirlərin davam etdirilməsi, hüquqi yardımla bağlı Azərbaycan Respublikasının qoşulmadığı beynəlxalq sənədləri təhlil edib onlara qoşulmaq barədə təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019–2023 |
| 6.1.4. | Beynəlxalq norma və prinsiplər, o cümlədən beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, məhkumların və həbs edilmiş şəxslərin hüquqlarının daha effektiv təmin edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019–2023 |
| 6.1.5. | Toplanmış təcrübə, müasir tələblər, beynəlxalq norma və prinsiplər nəzərə alınmaqla, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə inzibati nəzarətin təkmilləşdirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklər barədə təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019 |
| 6.1.6. | Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq sənədlərin Azərbaycan dilində külliyyatının hazırlanması və yayılması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.1.7. | Məhkəmələrin və digər orqanların qərarlarının icrası sahəsində normativ bazanın təkmilləşdirilməsi məqsədilə bu sahəni tənzimləyən vahid qanun layihəsinin hazırlanması və təqdim olunması | Nazirlər Kabineti | 2019 |

| | | | |
|---|---|---|---|
| 6.1.8. | Əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardım göstərilməsinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq ekspertlərinin iştirakı ilə "Pulsuz hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması | Nazirlər Kabineti | 2019–2023 |
| 6.1.9. | Məhkəmə prosesi zamanı iclasda bilavasitə iştirak edə bilməyən şəxslərlə (təqsirləndirilən şəxslər istisna olmaqla) texniki vasitələrdən istifadə olunmaqla, məsafədən videoəlaqə qurulmasının təmin edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019 |
| **6.2. Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi** | | | |
| 6.2.1. | Ədliyyə orqanlarında və məhkəmələrdə informasiya-kommunikasiya texnologiyalarının (bundan sonra – İKT) tətbiqinin genişləndirilməsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən elektron xidmətlərin sayının artırılması, bu xidmətlərdə yeni innovativ metodların tətbiqi və həmin xidmətlərin mobil versiyasının hazırlanması üzrə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.2.2. | "Elektron hökumətə" keçidin təmin edilməsi məqsədilə məhkəmə və ədliyyə orqanlarında İKT-nin tətbiqinə dair uzunmüddətli strategiyanın hazırlanması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.2.3. | Əhalinin məlumat əldə etmək imkanlarının asanlaşdırılması məqsədilə Ədliyyə Nazirliyinin internet saytlarının təkmilləşdirilməsi üçün tədbirlər görülməsi, onların yeni versiyalarının hazırlanması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.2.4. | Ədliyyə Nazirliyinin "Çağrı Mərkəzi"nin fəaliyyətinin müasir İKT tətbiq olunmaqla təkmilləşdirilməsi, "qaynar xət"lərin işinin çağrı mərkəzlərinin fəaliyyətinə dair qanunvericiliyin tələblərinə tam uyğun qurulması və daim təkmilləşdirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.2.5. | Ədliyyə Nazirliyinin arxivlərinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların fəaliyyəti ilə bağlı informasiya bazasının və sorğuların cavablandırılmasına dair yeni elektron xidmətin yaradılması üçün tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2021 |
| 6.2.6. | Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı işinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat-informasiya sisteminə qoşulmasının təşkil edilməsi | yerli icra hakimiyyəti orqanları, Ədliyyə Nazirliyi | 2020–2023 |

| | | | |
|---|---|---|---|
| 6.2.7. | Bütün ədliyyə orqanlarını əhatə edən vahid İKT şəbəkəsi infrastrukturunun qurulması üzrə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.2.8. | Fiziki və hüquqi şəxslərə vahid mənbədən informasiya əldə etmək və elektron xidmətlərdən yararlanmaq imkanı verən “Vahid ədliyyə portalı”nın təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2019–2021 |
| 6.2.9. | Apostillərin elektron reyestri informasiya sisteminin yaradılması və bununla əlaqədar təkmilləşdirmə işlərinin aparılması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.2.10. | “Elektron icra” sisteminin funksionallığının təkmilləşdirilməsi, o cümlədən:<br>- sistemin bütün icra qurumlarında tam tətbiqinin təmin olunması;<br>- dövlət qurumlarının, bank və kredit təşkilatlarının elektron məlumat bazaları ilə inteqrasiya edilməsi;<br>- sistem çərçivəsində “Borcluların reyestri” elektron informasiya altsisteminin yaradılması;<br>- sistem çərçivəsində elektron hərraca dair funksionallığın yaradılması;<br>- notariusların icra qeydləri barədə elektron məlumatın qəbul edilməsi və icrası üçün avtomatlaşdırılmış qaydada aidiyyəti icra qurumlarına dərhal ötürülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.2.11. | Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri (www.huquqiaktlar.gov.az) elektron informasiya resursunun təkmilləşdirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.2.12. | Məhkəmə Ekspertizası Mərkəzinin filiallarını əhatə etməklə, qapalı elmi-metodik və informasiya-sorğu elektron sisteminin yaradılması | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.13. | Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər barədə məlumatların Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilməsi ilə bağlı təkliflərin təqdim olunması | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.14. | Cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini təmin edən və beynəlxalq meyarlara cavab verən “Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər” informasiya sisteminin tam həcmdə fəaliyyətinin təmin edilməsi | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.15. | Penitensiar xidmət müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının daha səmərəli təmin olunması məqsədilə müasir İKT-ni tətbiq etməklə məhkumlarla videogörüş imkanının təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2020–2022 |

| | | | |
|---|---|---|---|
| 6.2.16. | Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların səmərəli icrası məqsədilə elektron nəzarət vasitələrinin tətbiqinin təkmilləşdirilməsi üçün tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.17. | "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nin mobil versiyasının yaradılması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.2.18. | Ədliyyə orqanlarına müraciət edən vətəndaşların müraciətlərinin və sorğularının icra vəziyyəti barədə məlumatın elektron qaydada öyrənilməsi imkanının təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2020 |
| 6.2.19. | Elektron sənəd dövriyyəsi sisteminin yaradılması | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.20. | Ədliyyə Nazirliyinin əsas və ehtiyat məlumat mərkəzlərinin fəaliyyətinin təmin edilməsi | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.2.21. | Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli 268 nömrəli Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin müvafiq məhkəmələrdə tətbiqi üçün zəruri infrastrukturun Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində formalaşdırılması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2019–2020 |
| 6.2.22. | Ədliyyə orqanlarının göstərdiyi xidmətlərə görə vahid ödəniş portalının yaradılması, bu ödənişlərin müxtəlif ödəmə köşkləri və pos-terminallar vasitəsilə həyata keçirilməsi, o cümlədən icra və probasiya qurumlarında plastik kartlarla və ya nağd pulla borc ödənişini həyata keçirən cihazların quraşdırılması sahəsində tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2022 |
| 6.2.23. | Regional ədliyyə idarələrinin Ədliyyə Nazirliyinin elektron informasiya sistemlərinə çıxışının təmin edilməsi | Ədliyyə Nazirliyi | 2021–2022 |
| 6.2.24. | Avtomatlaşdırılmış kadr informasiya sisteminin yaradılması, funksionallığının təkmilləşdirilməsi, sistemdən təhlükəsiz vahid elektron şəbəkədə istifadə olunması və kadrların səmərəli idarə edilməsi üçün zəruri olan elektron bazaların həmin sistemə inteqrasiyası işlərinin başa çatdırılması | Ədliyyə Nazirliyi | 2019 |
| 6.2.25. | Notariat xidmətlərinin səyyar və məsafədən videoəlaqə vasitəsilə həyata keçirilməsi | Ədliyyə Nazirliyi | 2019 |
| **6.3. Ədliyyə orqanlarının maddi-texniki təchizatının yaxşılaşdırılması, ədliyyə orqanları işçilərinin və hakimlərin sosial müdafiəsinin gücləndirilməsi** | | | |
| 6.3.1. | Ədliyyə Nazirliyinin tabe strukturlarının iş şəraitini təhlil edərək, bərpasına ehtiyac olan qurumlarınınfrastrukturunun yaxşılaşdırılması üçün tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| 6.3.2. | Vətəndaşların qəbulu işinin yaxşılaşdırılması məqsədilə Ədliyyə Nazirliyinin inzibati binasında vətəndaşların qəbulu ilə bağlı infrastrukturun yenilənməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.3. | Maliyyə imkanları çərçivəsində bir sıra şəhər və rayonqeydiyyat şöbələrinin və dövlət notariat kontorlarının iş şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.4. | Məhkumlara və təqsirləndirilən şəxslərə göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi məqsədilə,maliyyə imkanları nəzərə alınmaqla müvafiq infrastrukturun təkmilləşdirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.5. | Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin beynəlxalq standartlara uyğun qurulması məqsədilə onun müasir tələblərə cavab verən yeni inzibati binasının inşa edilməsi və müasir avadanlıqla təchiz olunması | Nazirlər Kabineti | 2019–2023 |
| 6.3.6. | Məhkəmə Ekspertizası Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi, yeni filiallarının yaradılması və ekspertiza növlərinin | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.3.7. | genişləndirilməsi üçün müvafiq tədbirlər görülməsi Maliyyə imkanları nəzərə alınmaqla, Ədliyyə Akademiyasının mövcud iş şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.8. | Regional ədliyyə idarələrinin iş şəraitinin yaxşılaşdırılması sahəsində müvafiq tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.9. | Ədliyyə orqanları işçilərinin mənzilə olan ehtiyacının güzəştli şərtlərlə təmin edilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün maliyyə imkanları nəzərə alınmaqla, mənzil kooperativinin yaradılması və yaşayış binasının inşa edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.10. | Ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vəzifələrinin nümunəvi icrasının qiymətləndirilməsi və fəaliyyətinin stimullaşdırılması ilə bağlı tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019 |
| 6.3.11. | Digər dövlət orqanlarının təcrübəsi nəzərə alınmaqla, xüsusi bilik, təcrübə və müstəsna məsuliyyət tələb edən əməklə məşğul olan Ədliyyə Nazirliyi əməkdaşlarının maddi təminatının yaxşılaşdırılması ilə bağlı təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019 |
| 6.3.12. | Ədliyyə orqanlarının işçilərinə və hərbi qulluqçularına göstərilən tibbi xidmətin səviyyəsinin və səmərəliliyinin yüksəldilməsi məqsədilə müvafiq tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2020–2023 |
| 6.3.13. | Ədliyyə orqanları işçilərinin idmanla məşğul olmaları üçün lazımi şərait və imkan yaradılması məqsədilə müvafiq tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| 6.3.14. | İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin fəaliyyətinin müasir tələblər səviyyəsində təmin edilməsi məqsədilə müvafiq tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.3.15. | Hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların təminatının yaxşılaşdırılması məsələsi ilə bağlı təkliflərin təqdim olunması | Ədliyyə Nazirliyi | 2019–2020 |
| **6.4. Ədliyyə sistemində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması** | | | |
| 6.4.1. | Ədliyyə orqanlarında kadrlarla aparılan işin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, kadr korpusunun peşəkar və mənəvi cəhətdən təmiz işçilər hesabına şəffaf üsullarla müsabiqə və müsahibə əsasında formalaşdırılması işini diqqət mərkəzində saxlayaraq, qulluğa qəbulun mütəmadi aparılması, həmçinin qulluğa qəbulla bağlı müsabiqədə iştirak edənlər üçün Ədliyyə Akademiyasında hazırlıq kurslarının təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.2. | Ölkəmizdə könüllülük institutunun təşviqi çərçivəsində gənc könüllülərin ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunması təcrübəsinin genişləndirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.3. | Ədliyyə orqanları işçiləri və digər hüquqşünas kadrlar üçün Ədliyyə Akademiyasında ixtisasartırma kurslarının təşkili zamanı müasir metodologiyalardan istifadə olunması təcrübəsinin təkmilləşdirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.4. | Ədliyyə Akademiyasında yüksəkixtisaslı, xüsusilə penitensiar xidmət üçün hüquqşünas kadrların hazırlanması məqsədilə bakalavriat və magistratura təhsili səviyyələrində tədrisin təşkili imkanlarını təhlil edərək təkliflər təqdim olunması | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.5. | Hakimlərin, ədliyyə və məhkəmə aparatı işçilərinin İKT-dən istifadə bacarıqlarının artırılması məqsədilə davamlı təlimlərin təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.6. | Məhkəmə aparatı işçilərinin qulluğa qəbulunun təkmilləşdirilməsi ilə bağlı təkliflərin təqdim olunması, habelə onların peşə fəaliyyətinə yiyələnməsi üçün ilkin tədris kurslarının təşkili təcrübəsindən istifadə edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.7. | Penitensiar Xidmətin Təlim Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.4.8. | İcra, probasiya və İKT sahəsində kadr potensialının gücləndirilməsi, onların peşəkarlıq səviyyəsinin artırılması üçün kadrların müntəzəm treninqlərə, o cümlədən beynəlxalq təlimlərə cəlb edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| 6.4.9. | Probasiya xidmətinin fəaliyyətinin səmərəli təşkili məqsədilə onun strukturunun təkmilləşdirilməsi, yerli (regional) idarə və şöbələrin yaradılması və onların maddi-texniki bazasının gücləndirilməsi | Ədliyyə Nazirliyi | 2019–2020 |
| 6.4.10. | Əhali barədə məlumatların formalaşdırılması fəaliyyətində vahid yanaşmanın təmin edilməsi, təkrarçılığın aradan qaldırılması və bu sahədə kadr potensialından daha səmərəli istifadə məqsədilə idarəetmənin təkmilləşdirilməsi | Ədliyyə Nazirliyi | 2019 |
| **6.5. Penitensiar xidmətin fəaliyyətinin müasirləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması** | | | |
| 6.5.1. | Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunmasının genişləndirilməsi, cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpası və yeni sahələrin yaradılması, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması üçün tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.2. | Penitensiar müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, məhkum və həbs edilmiş şəxslərin saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması, onlar üzərində etibarlı nəzarətin və mühafizənin təşkili məqsədilə müasir elektron nəzarət vasitələrinin və mühafizə sistemlərinin tətbiqi, habelə mühafizə hasarlarının möhkəmləndirilməsi və yanğın təhlükəsizliyi tədbirlərinin gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.3. | Məhkumların və həbs edilmiş şəxslərin etibarlı müşayiəti, əməkdaşların xidmət yerlərinə daşınmasının təmin edilməsi məqsədilə Penitensiar xidmətin nəqliyyat parkının yenilənməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.4. | “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 2668 nömrəli Sərəncamına uyğun olaraq məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər görülməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.5. | Penitensiar müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının daha etibarlı qorunması və onlarla aparılan tərbiyə işinin səmərəliliyinin artırılması məqsədilə işçi heyətin məhkum və həbs edilmiş şəxslərin sayına mütənasibliyinə dair təkliflərin təqdim olunması | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| 6.5.6. | Bakı şəhəri Umbakı qəsəbəsində yeni həbsxananın, qadın və yetkinlik yaşına çatmayan şəxslər üçün penitensiar kompleksin, Gəncə və Lənkəran şəhərlərində qarışıq tipli penitensiar komplekslərin tikintisinin başa çatdırılması və onların istifadəyə verilməsi ilə bağlı tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.7. | Məhkumların islah olunmasında mühüm rol oynayan cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və ya cəzanı daha yüngül cəza növü ilə əvəzetmə, o cümlədən məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirmə institutunun təkmilləşdirilməsi üzrə təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019 |
| 6.5.8. | Penitensiar müəssisələrdə saxlanılan şəxslər arasında xəstəliklərin diaqnostikasının yaxşılaşdırılması, habelə məhkumlar arasında vərəmin aşkarlanması işinin təkmilləşdirilməsi və vərəmə yoluxmanın qarşısının alınması üzrə fəaliyyətin səmərəliliyinin artırılması | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.5.9. | Həbs edilmiş şəxslər və məhkumlar arasında qanla ötürülən infeksiyaların yayılmasının profilaktikası, narkomanların müalicəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə penitensiar müəssisələrdə preventiv tədbirlərin gücləndirilməsi və yeni müalicə proqramlarının tətbiq edilməsi | Ədliyyə Nazirliyi | 2019–2020 |
| **6.6. Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması** | | | |
| 6.6.1. | Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, bu sahədə müasir informasiya texnologiyalarından daha geniş istifadə olunması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə:<br>- sistemdən istifadə qaydalarının hazırlanması və məhkəmələrdə kargüzarlığın aparılmasına dair qanunvericiliyin təkmilləşdirilməsi;<br>- sistemin müvafiq (Bakı, Sumqayıt, Şəki və Naxçıvanın yurisdiksiyalarında olan) məhkəmələrdə komponentlər üzrə mərhələli tətbiqinin təmin edilməsi;<br>- e-iddia ərizələrinin qəbulunun, məhkəmə icraatının elektron qaydada aparılmasının və sənədlərin elektron dövriyyəsinin beynəlxalq təcrübə öyrənilməklə tətbiq edilməsi;<br>- məhkəmə fəaliyyətində elektron imzanın tətbiqi üzrə beynəlxalq təcrübəni öyrənərək, e-imzanın tətbiqinin genişləndirilməsi üçün təkliflər hazırlanması; | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| | - elektron və kağız məhkəmə sənədlərinin arxivləşdirilməsi və saxlanması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üçün təkliflər hazırlanması;<br>- elektron analitik və statistik hesabatların alınması üçün elektron idarəetmə komponentinin tətbiq edilməsi;<br>- məhkəmə sisteminin vahid veb-portalının təkmilləşdirilməsi üzrə tədbirlər görülməsi, onun daim yüksək informativliyinin təmin edilməsi üçün məhkəmə aparatlarının kadr potensialının gücləndirilməsi | | |
| 6.6.2. | Məhkəmə infrastrukturunun yaxşılaşdırılmasına zəruri ehtiyac olan məhkəmə binalarının müəyyən edilməsi | Ədliyyə Nazirliyi | 2019–2021 |
| 6.6.3. | Sumqayıt Məhkəmə Kompleksinin və Masallı Rayon Məhkəməsinin yeni inzibati binalarının tikintisi, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin inzibati binasında isə yenidənqurma işlərinin başa çatdırılması | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2019–2023 |
| 6.6.4. | Ədalət mühakiməsinin səmərəliliyinin artırılması tədbirləri çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi və müvafiq işlərə dair statistik göstəricilərin təhlilini aparmaqla, Məhkəmə-Hüquq Şurası ilə birlikdə məhkəmə quruluşunun və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin təqdim olunması | Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası | 2019–2023 |
| 6.6.5. | Azərbaycanda mediasiya institutunun yaradılması üzrə tədbirlərin davam etdirilməsi, o cümlədən bu fəaliyyəti tənzimləyən normativ bazanın formalaşdırılmasının, beynəlxalq təşkilatların dəstəyi ilə pilot qaydada tətbiqinin və əhalinin bu sahədə maarifləndirilməsinin təşkil edilməsi | Nazirlər Kabineti | 2019–2021 |
| 6.6.6. | BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıq çərçivəsində yuvenal ədliyyənin inkişafı üzrə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.6.7. | Əhalinin rahatlığı və vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilməsi məqsədilə iş həcmi daha çox olan məhkəmələrdə məlumat və ödəniş köşklərinin quraşdırılması | Ədliyyə Nazirliyi | 2021–2023 |
| **6.7. Şəffaflığın artırılması və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişləndirilməsi** | | | |
| 6.7.1. | Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması, əhalinin hüquqi mədəniyyətinin yüksəldilməsi məqsədilə maarifləndirici materialların nəşr etdirilməsi, onların əhali arasında yayılması, bu məqsədlə Ədliyyə Nazirliyinin saytlarının və nəşrlərinin imkanlarından səmərəli istifadə olunması | Ədliyyə Nazirliyi | 2019–2023 |

| | | | |
|---|---|---|---|
| 6.7.2. | Ictimai iştirakçılıq və açıq hökumət prinsiplərinə uyğun olaraq ədliyyə orqanlarının ictimaiyyətlə, o cümlədən vətəndaş cəmiyyəti institutları ilə əlaqələrinin gücləndirilməsi məqsədilə qeyri-hökumət təşkilatları nümayəndələrinin Ədliyyə Nazirliyinin keçirdiyi tədbirlərə, işə qəbul prosesinə, ictimai rəyin öyrənilməsinə, məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi institutunun tətbiqi işinə cəlb olunması təcrübəsinin genişləndirilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.7.3. | Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi ilə bağlı ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri, qeyri-hökumət təşkilatları sektoru və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşlər keçirilməsi, mütəmadi “Açıq qapı” günlərinin təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.7.4. | Qeyri-kommersiya qurumlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə dair təhlillər aparılması, bu sahədə elektron xidmətlərin tətbiqi imkanlarının öyrənilməsi və müvafiq təkliflərin təqdim olunması | Nazirlər Kabineti | 2019–2020 |
| 6.7.5. | Əhalinin maarifləndirilməsi və hüquqi xidmət vasitəsi kimi ondan geniş istifadə edilməsi məqsədilə ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar külliyyatının hazırlanması | Ədliyyə Nazirliyi | 2019 |
| **6.8. Yerli özünüidarəetmə orqanlarının potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması** | | | |
| 6.8.1. | Yerli özünüidarəetmə orqanlarının kadr potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması məqsədilə yerli özünüidarəetmə orqanlarının aparatlarında çalışan işçilərin Ədliyyə Akademiyasında kurslara, treninqlərə və təlimlərə cəlb edilməsi | Ədliyyə Nazirliyi | 2019–2023 |
| 6.8.2. | Yerli özünüidarəetmə sahəsində bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici ölkələrin yerli özünüidarəetmə orqanları ilə beynəlxalq təcrübə mübadiləsinin təşkil edilməsi | Ədliyyə Nazirliyi | 2020–2023 |

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 255-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Maddənin mətni 255.1-ci maddə hesab edilsin və sanksiyasında "üç min manatdan altı" sözləri "altı min manatdan on" sözləri ilə əvəz edilsin, "məhdudlaşdırılması" sözündən sonra "və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 255.2-ci maddə əlavə edilsin:

"255.2. Bu Məcəllənin 255.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda -

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*
*N 1300-VQD*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.2-ci maddəyə "təsisçi (bir neçə təsisçi olduqda isə, bütün təsisçilər)" sözlərindən sonra ", qanuni təmsilçi (qanuni təmsilçilər)" sözləri əlavə edilsin və həmin maddədə "onun (onların)" sözləri "onların" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 5.3.2-2-ci maddə əlavə edilsin:

"5.3.2-2. publik hüquqi şəxsin və kommersiya qurumunun hüquqi ünvanına (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə) dair məlumat;".

3. 5.4.5-ci maddədə "qurumun" sözü "qeyri-kommersiya qurumunun" sözləri ilə əvəz edilsin.

4. 5.4.6-cı maddədən "təyin edildiyi halda, onun" sözləri çıxarılsın.

5. 5-1.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Elektron dövlət qeydiyyatı zamanı təsisçi (təsisçilər) və qanuni təmsilçi (qanuni təmsilçilər) eyni şəxs olmadıqda, ərizə həm təsisçi (təsisçilər), həm də qanuni təmsilçi (qanuni təmsilçilər) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*
*N 1303-VQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanun-

vericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 162-1-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Bu Məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda, habelə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*
*N 1306-VQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N

1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2, (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421) aşağıdakı dəyişikliklər edilsin:

1. 197.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 197.1.9-cu maddə əlavə edilsin:

"197.1.9. Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan gizlənən təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana gətirilməsi ilə əlaqədar çəkilmiş xərclərin məbləği.".

2. 198.1-ci maddədə "197.1.8-ci" sözləri "197.1.9-cu" sözləri ilə əvəz edilsin və "çəkmiş" sözündən sonra "dövlət orqanının," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*
*N 1381-VQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672; Azərbaycan Respublika-

sının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD və 1315-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.4-cü maddə ləğv edilsin.

2. Aşağıdakı məzmunda 10-1-ci maddə əlavə edilsin:

**"Maddə 10-1. Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması**

10-1.1. Elektron qaydada mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılır.

10-1.2. Məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə müəyyən etdiyi "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

10-1.3. İqtisadi mübahisələr üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.

10-1.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə həyata keçirilə bilər.

10-1.5. Bu Məcəllənin 10-1.3-cü və 10-1.4-cü maddələrində nəzərdə tutulmuş qaydada təqdim edilmiş sənədlərin digər qaydada verilməsi tələb oluna bilməz.

10-1.6. Məhkəmə iclasının real vaxt rejimində müşahidə edilməsi imkanı iclasda iştirak edə bilməyən tərəfin ərizəsinə əsasən və buna texniki imkanlar yol verdiyi halda məhkəmənin qərarı ilə təşkil oluna bilər.

10-1.7. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

10-1.8. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş iş materialları kağız daşıyıcıda olan materiallara bərabər tutulur və onlarla eyni hüquqi qüvvəyə malikdir.".

3. Aşağıdakı məzmunda 41-1-ci maddə əlavə edilsin:

**"Maddə 41-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılan iddianın aidiyyəti**

Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında işlərə baxılarkən iddia ərizəsi bu fəsillə müəyyən edilmiş aidiyyət üzrə məhkəməyə verilir.".

4. Aşağıdakı məzmunda 47.4-cü maddə əlavə edilsin:

"47.4. Məhkəmə işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrinin izahı haqqında bildiriş göndərir.".

5. Aşağıdakı məzmunda 108.3-cü maddə əlavə edilsin:

"108.3. Dövlət rüsumu yalnız elektron ödəniş sistemləri vasitəsilə ödənilməlidir.".

6. 135-ci maddə üzrə:

6.1. 135.1-ci maddəyə "Bu Məcəllənin" sözlərindən sonra "135.6-cı və 135.8-ci maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, bu Məcəllənin" sözləri əlavə edilsin;

6.2. 135.5-ci maddədə "və 135.3-cü" sözləri ", 135.3-cü, 135.6-cı və 135.8-ci" sözləri ilə əvəz edilsin;

6.3. aşağıdakı məzmunda 135.6 -135.8-ci maddələr əlavə edilsin:

"135.6. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə sənədləri bu şəxslərin həmin sistemdə yaradılmış

"elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.

135.7. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişlərsə, onlara məhkəmə sənədləri barədə məlumat bu sistem vasitəsilə şəxsin təqdim etdiyi mobil telefon nömrəsinə SMS-lə çatdırılır.

135.8. İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslərin məhkəmə sənədləri onların "Elektron məhkəmə" informasiya sistemində yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.".

7. 138.1-ci və 138.2-ci maddələrdə ", habelə" sözündən əvvəl ", prosessual hüquq və vəzifələri" sözləri əlavə edilsin.

8. 138.5-ci maddə ləğv edilsin.

9. Aşağıdakı məzmunda 139.2.7-1-ci maddə əlavə edilsin:

"139.2.7-1. işdə iştirak edən şəxslərin prosessual hüquq və vəzifələrinin izahı;".

10. 151.3-cü maddədə "iddia ərizəsini" sözlərindən sonra "(kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılan iddia ərizələri istisna olmaqla)" sözləri əlavə edilsin, "2 həftə" sözləri "10 gün" sözləri ilə əvəz edilsin.

11. Aşağıdakı məzmunda 166.3-cü və 166.4-cü maddələr əlavə edilsin:

"166.3. Məhkəmənin hazırlıq iclası ərizə məhkəməyə daxil olduqdan sonra 15 (on beş) gündən gec olmayaraq təyin olunur. İşdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət məhkəmənin qərardadı ilə 15 (on beş) gündən artıq olmayan müddətə uzadıla bilər.

166.4. İşdə iştirak edən şəxslərə hazırlıq iclası barədə həmin iclasın keçirilməsinə ən azı 5 (beş) iş günü qalmış bu Məcəllədə nəzərdə tutulmuş qaydada məlumat verilməlidir.".

12. 173-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"173.1. İşə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər məhkəmə iclası barədə həmin iclasa ən azı 5 (beş) iş günü qalmış xəbərdar edilməlidirlər.

173.2. Məhkəmə baxışı məhkəmənin hazırlıq iclasının keçirildiyi vaxtdan 30 (otuz) gündən gec olmayan müddətdə təyin olunmalıdır. İşdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət məhkəmənin qərardadı ilə 15 (on beş) gündən artıq olmayan müddətə uzadıla bilər.".

13. Aşağıdakı məzmunda 176.5-1-ci maddə əlavə edilsin:

"176.5-1. Məhkəmə iclasının audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınması və iclasın real vaxt rejimində müşahidə edilməsi imkanı, habelə proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə olunmaqla iclasda iştirak etmək imkanı "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə təmin olunur.".

14. 183-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Sədrlik edən işdə iştirak edən şəxslərə prosessual hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Sədrlik edən eyni zamanda tərəflərə, mübahisəni həll etmək üçün münsiflər məhkəməsinə müraciət etmək hüquqlarını və bunun nəticələrini izah edir. Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.".

15. Aşağıdakı məzmunda 188.3-cü maddə əlavə edilsin:

"188.3. Hakim bu Məcəllədə müəyyən edilmiş əsaslarla

işə baxılmasını qabaqcadan nəzərdə tutula bilməyən və ya müstəsna hallarda təxirə sala bilər. İşə baxılması 3 dəfədən çox olmayaraq təxirə salına bilər. Bundan sonra məhkəmə baxışı növbəti dəfə təxirə salındıqda, hakim bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.".

16. 214-cü maddə üzrə:

16.1. 214.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"214.1. Qətnaməni qəbul etdikdən sonra hakim məhkəmə iclası zalına qayıdır (tərəflərin məhkəmə iclasına gəlmədiyi hallar istisna olmaqla), qətnamənin giriş və nəticə hissələrini elan edir, qətnamədən şikayət etmə qaydası və müddətini, habelə tərəflərin müraciəti olduğu halda qətnamənin nəticə hissəsini izah edir.";

16.2. 214.3-cü maddə ləğv edilsin;

16.3. 214.4-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Qətnamənin giriş və nəticə hissələrini əks etdirən çıxarış təsdiq olunaraq elan olduğu gün tərəflərə rəsmi qaydada verilməlidir.".

17. Aşağıdakı məzmunda 216.5-ci, 227.4-cü, 263.5-1-ci, 266.3-cü və 281.4-cü maddələr əlavə edilsin:

"216.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qətnamənin elan edilmiş nəticə hissəsi barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.

227.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim qətnaməni tərtib etdikdən sonra onu elektron imzası ilə təsdiq etməklə 3 (üç) gün ərzində işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.

263.5-1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə elan olunmuş qərardad barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.

266.3. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim qərardadı çıxardıqdan sonra 5 (beş) gün müddətində elektron imzası ilə təsdiq etməklə işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.

281.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim məhkəmə əmrini elektron imzası ilə təsdiq etməklə 3 (üç) gün müddətində işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.".

18. 243-cü maddənin mətni 243.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 243.2-ci maddə əlavə edilsin:

"243.2. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim qiyabi qətnaməni elektron imzası ilə təsdiq etməklə qiyabi qətnamə çıxarıldığı vaxtdan 10 (on) gündən gec olmayan müddətdə işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.".

19. 271.2.7-ci maddəyə "elan edilməsinə" sözlərindən əvvəl "bildirilməsinə və ya" sözləri əlavə edilsin.

20. 272.4-1-ci maddənin birinci cümləsində "İqtisadi mübahisələr üzrə" sözlərindən sonra ", həmçinin "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə" sözləri əlavə edilsin.

21. Aşağıdakı məzmunda 23-1-ci fəsil əlavə edilsin:

**"Fəsil 23-1**
**Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat**

**Maddə 284-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat**

Mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, iqtisadi mübahisələrə dair işlər üzrə iddianın qiyməti on min

manatdan az olan iddialar (kiçik iddialar) üzrə işlərə bu fəslə uyğun olaraq sadələşdirilmiş qaydada baxılmasına yol verilir.

**Maddə 284-2. Ərizənin verilməsi**

Kiçik iddialara dair işlərdə ərizə bu Məcəllənin 4-cü fəslində müəyyən edilmiş ümumi aidiyyət qaydalarına əsasən verilir.

**Maddə 284-3. Ərizənin forması və məzmunu**

284-3.1. Ərizə məhkəməyə ümumi qaydada verilir. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə ərizə həmin sistemdə qeydiyyatdan keçmiş mülki işlər üzrə işdə iştirak edən şəxslər, habelə iqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər tərəfindən "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərilir.

284-3.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

284-3.2.1. ərizənin verildiyi məhkəmənin adı;

284-3.2.2. iddiaçı və cavabdehin adları, onların poçt ünvanları;

284-3.2.3. iddiaçının tələbi və onun əsaslandığı hallar;

284-3.2.4. tələbin əsaslığını təsdiq edən sənədlər;

284-3.2.5. əlavə edilən sənədlərin siyahısı.

284-3.3. Ərizə ümumi qaydada verildikdə, iddiaçı və ya onun nümayəndəsi tərəfindən imzalanır və iddiaçının əsaslandığı sənədlər ona əlavə edilir. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd də əlavə edilməlidir.

284-3.4. Ərizə "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərildikdə iddiaçının və ya onun nümayəndəsinin elektron imzası ilə təsdiq olunur. Ərizəyə əlavə edilən sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında təqdim edilir.

**Maddə 284-4. İşə baxılmasının sadələşdirilmiş qaydasının yolverilməzliyi**

284-4.1. Məhkəmə kiçik iddialara dair işlərə sadələşdirilmiş qaydada baxılması ilə əlaqədar ərizənin qəbul olunmasından aşağıdakı hallarda imtina edir:

284-4.1.1. bu Məcəllənin 153.2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edilmişdirsə;

284-4.1.2. verilmiş tələb bu Məcəllənin 284-1-ci maddəsinə uyğun deyildirsə;

284-4.1.3. verilmiş tələbi təsdiq edən sənədlər təqdim olunmamışdırsa;

284-4.1.4. ərizənin əsaslandığı tələbetmə hüququ barədə mübahisə vardırsa.

284-4.2. Bu Məcəllənin 284-4.1-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə ərizənin daxil olduğu gündən 5 (beş) iş günü müddətində onun qəbul edilməsindən imtina haqqında əsaslandırılmış qərarda çıxarır. Məhkəmə bu müddət ərzində ərizəni qəbul etməkdən imtina etməyibsə, o, qəbul edilmiş sayılır. Ərizəni qəbul etməkdən imtina barədə qərardaddan şikayət verilə bilməz.

284-4.3. Ərizənin qəbul edilməsindən imtina olunması iddiaçının həmin tələb üzrə iddia icraatı qaydasında iddia verməsinə mane olmur. Bu halda iddiaçı tərəfindən ödənilmiş dövlət rüsumu ödənilməli olan dövlət rüsumuna hesablanır.

**Maddə 284-5. Ərizəyə baxılması qaydası**

284-5.1. Ərizənin qəbulundan imtina olunmamışdırsa, onun məhkəməyə daxil olduğu vaxtdan 5 (beş) iş günü ərzində işə baxan hakim cavabdehə rəsmi qaydada bildiriş göndərir. Bildirişdə iddiaçının tələbinə dair cavabdehin əsaslandırılmış etirazının olduğu halda öz dəlillərini və onları təsdiq edən sənədləri təqdim etməli olduğu qeyd edilir.

284-5.2. Cavabdeh bildirişi rəsmi qaydada aldığı gündən 10 (on) iş günü müddətində iddiaya qarşı əsaslandırılmış etirazını və ona əlavə olunmuş sənədləri, elektron qaydada verildikdə isə elektron imza ilə təsdiq edilmiş etirazını və ona əlavə olunmuş, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş

qaydada elektron sənəd formasında tərtib edilmiş sənədləri məhkəməyə göndərə bilər.

284-5.3. Ərizə məhkəməyə daxil olduğu gündən 30 (otuz) iş günü ərzində işə tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır.

284-5.4. Tərəflərin təqdim etdiyi sənədlər iş üzrə yekun qərarın çıxarılması üçün kifayət etmirsə, habelə iş üzrə əlavə araşdırmanın, o cümlədən tərəfləri çağıraraq izahatların alınması, yaxud şahidlərdən ifadələrin və ya ekspertlərdən rəyin alınması zərurəti yaranırsa məhkəmə işə iddia icraatı qaydasında baxılması haqqında əsaslandırılmış qərardad çıxarır. Bu qərardaddan şikayət verilə bilməz.

**Maddə 284-6. Ərizə üzrə məhkəmə qətnaməsi**

284-6.1. İşə mahiyyəti üzrə baxan hakim tərəfindən iddianın təmin və ya rədd edilməsi haqqında qətnamə qəbul edilir.

284-6.2. Məhkəmə qətnaməsindən bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada apellyasiya şikayəti verilə bilər.

284-6.3. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlər üzrə çıxarılmış məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə qəbul edildiyi gündən 1 (bir) ay keçdikdən sonra qanuni qüvvəyə minir.".

22. 375-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Sədrlik edən işdə iştirak edən şəxslərə prosessual hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.".

23. 415-1.2-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İşdə iştirak edən şəxslərə bu Məcəllədə nəzərdə tutulmuş hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*
*N 1436-VQD*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7, maddə 1442) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Məhkəmələrin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmalıdır.".

2. 86-cı maddənin üçüncü hissəsinə "aparılması" sözündən sonra ", o cümlədən işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi və elektron qaydada yayılan məhkəmə qərarlarının anonimləşdirilməsi" sözləri əlavə edilsin.

3. 87-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Məhkəmə statistikası, həmçinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada aparılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*
*N 1437-VQD*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12,

maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N 2, maddə 151, N 5, maddələr 853, 867, N 7, I kitab, maddə 1424, N 8, maddə 1674) aşağıdakı dəyişikliklər edilsin:

1. preambulada, 6.1.4-cü və 13.1.3-cü maddələrdə "notariat orqanlarının" sözləri "notariusun" sözü ilə əvəz edilsin.

2. 7.4-cü maddənin ikinci cümləsində "Notariat orqanlarının" sözləri "Notariusun" sözü ilə əvəz edilsin.

3. 8.2-ci maddə üzrə:

3.1. ikinci bəndinin birinci cümləsinə "edilməyibsə," sözündən sonra "həmçinin bu maddənin üçüncü bəndində müəyyən edilmiş icra müddəti istisna olmaqla," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda üçüncü bənd əlavə edilsin:

"İpoteka predmetinin açıq bazarda satılması üsulu ipoteka müqaviləsində nəzərdə tutulduğu halda notarius tərəflərdən birinin istəyi ilə ipoteka predmetinin açıq bazarda satılması barədə notariat qaydasında təsdiq edilmiş müraciətini icra qeydi ilə birlikdə 1 iş günü ərzində icra orqanına göndərir. İpoteka predmeti açıq bazarda satılmaqla tələbin könüllü icrası üçün 2 ay müddət müəyyən edilir. İpoteka predmeti bu müddətdə açıq bazarda satıldığı halda notarius satışdan əldə olunan pul məbləğini depozit hesabından icra orqanının depozit hesabına köçürür. İpoteka predmeti bu müddətdə açıq bazarda satılmadığı halda tələb icra məmuru tərəfindən məcburi qaydada icra edilir.".

4. 12.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.1. Bu Qanunun 8.2-ci maddəsinin üçüncü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, icra məmuru icra sənədini aldığı gündən iki ay müddətində bütün zəruri icra hərəkətlərini həyata keçirməlidir.".

5. 14-cü maddə üzrə:

5.1. 14.1-ci maddədə "etmək hüququna malikdir" sözləri "etməlidir" sözü ilə əvəz edilsin;

5.2. 14.2-ci maddədən "zərurət olduqda," sözləri çıxarılsın.

6. 16.1-ci maddədə "ərizəsinə" sözü "əsaslandırılmış müraciətinə" sözləri ilə, "sala bilər" sözləri "salır" sözü ilə əvəz edilsin.

7. 17-ci maddə üzrə:

7.1. 17.1.4-cü maddədə "sənədinə" sözündən sonra "və ya onun verilməsinə əsas olan tələbə ("İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aparılan notariusun icra qeydi və ya onun verilməsinə əsas olan tələb istisna olmaqla)" sözləri əlavə edilsin;

7.2. 17.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 17.1.9-cu və 17.1.10-cu maddələr əlavə edilsin:

"17.1.9. icra məmuru icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması üçün müvafiq məhkəməyə və ya digər orqana müraciət etdikdə;

17.1.10. tələbkarın müvafiq xahişi olduqda.".

8. 18.1.1-ci və 18.1.6-cı maddələr ləğv edilsin.

9. 19-cu maddə üzrə:

9.1. 19.1.3-cü maddəyə "olmuş" sözündən sonra "tələb," sözü əlavə edilsin;

9.2. 19.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"19.2. İcraatın dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan sonra icra məmuru və ya icra qurumunun rəhbəri tələbkarın ərizəsi, yaxud öz təşəbbüsü ilə icra sənədi üzrə icraatı təzələyir.".

10. 23-cü maddə üzrə:

10.1. 23.3-cü maddənin birinci cümləsində "tələbkarın müraciəti ilə həmin sənədin yenidən icraya yönəldilməsini istisna etmir" sözləri "tələbkar müraciət etdikdə sənəd yenidən icraya yönəldilir" sözləri ilə əvəz edilsin;

10.2. 23.4-cü maddədə "və 23.1.4-cü maddələrində göstərilən əsaslara" sözləri "maddəsində göstərilən əsasa" sözləri ilə əvəz edilsin;

10.3. 23.5-ci maddədə "23.1.2-ci və 23.1.3-cü" sözləri "23.1.2-23.1.5-ci" sözləri ilə əvəz edilsin.

11. Aşağıdakı məzmunda

24.3-cü maddə əlavə edilsin:

"24.3. İcra sənədlərinin aidiyyəti üzrə göndərilməsi barədə icra məmuru tərəfindən tələbkara məlumat verilir.".

12. 40-cı maddə üzrə:

12.1. 40.1-ci maddədə ", zərurət olduqda isə bir neçə mütəxəssis" sözləri "(bir neçə mütəxəssis)" sözləri ilə əvəz edilsin;

12.2. 40.2-ci maddəsinin birinci cümləsindən "zəruri hallarda" sözləri çıxarılsın.

13. 41-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 41. İcra məmurları ilə dövlət orqanlarının (qurumlarının) qarşılıqlı fəaliyyəti

41.1. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı icra məmurlarına maneçilik törədildikdə və ya onların həyat və sağlamlıqları üçün təhlükə yarandıqda, müvafiq icra hakimiyyəti orqanı qanuna uyğun olaraq icra məmurlarına kömək göstərməyə borcludur. Digər dövlət orqanları (qurumları) icra hərəkətlərinin həyata keçirilməsinə əsasnamələrinə (nizamnamələrinə) uyğun olaraq yardım etməlidirlər.

41.2. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı icra məmurlarının borclu hüquqi və fiziki şəxsin əmlakı, o cümlədən pul vəsaitləri və digər maddi sərvətləri barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə əldə etmək hüququ vardır.".

14. Aşağıdakı məzmunda 44.3-cü maddə əlavə edilsin:

"44.3. Tələbkarın tələblərinin təmin edilməsi üçün borclunun yetərli pul vəsaiti olmadıqda bu Qanunun 43.1.1-43.1.5-ci maddələrində nəzərdə tutulan məcburi icra tədbirlərinin hər hansı birinin tətbiqi digərlərinin tətbiqini istisna etmir.".

15. Aşağıdakı məzmunda 45.7-1-ci maddə əlavə edilsin:

"45.7-1. Tələbin borclunun əmlakına, o cümlədən nağd, yaxud banklarda və ya digər kredit təşkilatlarındakı hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinə və başqa sərvətlərinə yönəldilməsi zamanı qəbul olunmuş qərar (əmlakın üzərinə həbs qoyulması və s.) barədə icra məmuru tərəfindən 1 iş günündən gec olmayaraq qarşılıqlı inteqrasiya olunmuş elektron sistem vasitəsilə "Elektron hökumət" portalında müvafiq qeyd aparılmalıdır.".

16. 50-ci maddə üzrə:

16.1. 50.1-ci maddədə "zəruri" sözü "təxirəsalınmaz" sözü ilə əvəz edilsin;

16.2. 50.8-ci maddənin birinci cümləsində "apara bilər" sözləri "aparır" sözü ilə əvəz edilsin.

17. 51.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"51.1. Borclunun əmlakının "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərəflərin razılığı, yaxud məhkəmənin qərarı ilə qiymətləndirildiyi, habelə tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna olmaqla, borclunun əmlakının qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir. İcra məmuru qiymətləndirmə sahəsində ixtisaslaşmış və 5 ildən az olmayaraq fəaliyyət göstərən, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi sahədə olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir.".

18. 57.3-cü maddədə "müvafiq qanunvericiliklə" sözləri "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" sözləri ilə əvəz edilsin.

19. 72-ci maddə üzrə:

19.1. 72.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bildiriş Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 135.2-ci və 135.3-cü maddələrində müəyyən edilmiş qaydada verildikdə rəsmi qaydada təqdim edilmiş hesab olunur.";

19.2. 72.5-ci maddənin ikinci cümləsindən ", zəruri hallarda," sözləri çıxarılsın və həmin cümlədə "edə bilər" sözləri "etmək hüququna malikdir"

sözləri ilə əvəz edilsin;

19.3. 72.6-cı maddənin birinci cümləsindən ", zəruri hallarda," sözləri çıxarılsın.

20. 73.2-ci maddə üzrə:

20.1. birinci cümlədə "zəruri hallarda isə" sözləri "habelə" sözü ilə və "edir" sözü "etmək hüququna malikdir" sözləri ilə əvəz edilsin;

20.2. ikinci cümlədən "sonradan" sözü çıxarılsın.

21. 78.5-ci və 81.3-cü maddələr ləğv edilsin.

22. 80.3-cü maddənin ikinci cümləsində "23.1.4-cü və ya 23.1.5-ci" sözləri "23.1.2?23.1.5-ci" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*
*N 1440-VQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD və 1315-VQD nömrəli qanunları) 78.2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz paya (səhmə) malik olan işdə iştirak edən şəxs vəsatətdə işdə iştirak edən digər şəxsdə (hüquqi şəxsdə və ya onun adından çıxış edən şəxsdə) olan Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49.4-cü maddəsində nəzərdə tutulan hallarla bağlı bütün sənədlərin (konkret sənəd göstərilmədən) və ya məlumatların təqdim edilməsinin təmin olunmasını məhkəmədən tələb edə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2018-ci il.*
*N 1450-VQD*

# Zahir Məmməd oğlu Əlizadə

Ədliyyə Nazirliyinin kollektivinə ağır itki üz vermişdir. Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi III dərəcəli dövlət ədliyyə müşaviri Zahir Məmməd oğlu Əlizadə 2019-cu il yanvarın 9-da ömrünün 63-cü ilində vəfat etmişdir.

Zahir Əlizadə 1956-cı ildə Ağdaş rayonunda anadan olmuşdur. 1973-cü ildə orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə öz rayonunda fəhləlikdən başlamış, 1984-cü ildə Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına yiyələnərək müxtəlif sahələrdə işləmiş, ömrünün 35 ildən çox dövrünü hüquq mühafizə orqanlarında xidmətə həsr etmişdir.

O, 1992-ci ildə respublika prokurorluğu orqanlarına qulluğa qəbul edilərək bir müddət Bakı şəhər prokurorluğunda, sonra isə Baş Prokurorluğa işə irəli çəkilərək Təşkilat-nəzarət idarəsinin prokuroru vəzifəsində çalışmışdır.

2001-ci ildən fəaliyyətini Ədliyyə Nazirliyində davam etdirən Z.Əlizadə Təşkilat-analitik idarənin baş məsləhətçisi vəzifəsinə təyin edilmiş, 2004-cü ildə Ədliyyə



Nazirliyində yeni yaradılmış Cəzaların icrasına nəzarət üzrə müfəttişlikdə baş məsləhətçi və rəis müavini vəzifələrində çalışmaqla təcrübəsini və təşkilatçılıq qabiliyyətini bu sahədə fəaliyyətin səmərəli qurulmasına sərf etmişdir.

2007-ci ildən isə nazirliyin İcra baş idarəsinin rəis müavini vəzifəsinə təyin olunan Zahir Əlizadə məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi ilə bağlı səylərini əsirgəməmiş, onun müəllifi olduğu "İcra haqqında" Qanunun kommentariyası məhkəmə qərarlarının icrası zamanı nəzəri və praktiki məsələlərin ətraflı şərhində, həmçinin mövcud boşluqların aradan qaldırılmasında hər bir icra məmurunun stolüstü kitabına çevrilmişdir.

Peşəkarlığı ilə fərqlənən Zahir Əlizadə 2016-cı ildən ömrünün sonunadək nazirliyin Bələdiyyələrlə iş mərkəzinə rəhbərlik etməklə bu sahədə fəaliyyətin səmərəli təşkili üçün bilik və bacarığını səfərbər etmiş, hər zaman zəhmətsevərliyi, işə məsuliyyətli münasibəti, prinsipiallığı və tələbkarlığı ilə seçilmiş, öz zəngin təcrübəsini gənc kadrlarla paylaşmışdır.

Zahir Əlizadənin səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmiş, o, ölkə başçısının sərəncamları ilə "Dövlət qulluğunda fərqlənməyə görə", "Tərəqqi" medalları ilə təltif olunmuş və III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinə layiq bilinmiş, həmçinin "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalı və nazirliyin Döş nişanı ilə mükafatlandırılmışdır.

Zahir Əlizadənin əziz xatirəsi onu tanıyanların daim qəlbində yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Ədliyyə Nazirliyinin kollektivi**